# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Xalqın milli kimliyi - Ana dili




3

№ 135 (7303)

SƏS

1 avqust 2025-ci il.
Qiymәti 60 qәpik

# Azərbaycanın sosialyönümlü dövlət modeli



2

Prezident İlham Əliyev: "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək"

# Azərbaycan Yaxın Şərqin yeni enerji xəritəsində

*Yaxud, Suriyadan keçən qaz kəmərlərinin perspektivləri*



4

### Paytaxt Bakı "Formula-1"-ə hazırlaşır



9

### Təməl qida: ana südü həftəsi başlayır



15

### "Çelsi" 40 milyon avroya futbolçu transfer edir



16

### Dəb, yoxsa dəyərlərin məhvi?



7

### Səndən doğma bir dil varmı bu dünyada?...



8

# Azərbaycanın sosialyönümlü dövlət modeli

## Prezident İlham Əliyev: "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək"

Azərbaycanda dövlət sosial siyasətinin önəmli istiqamətlərindən biri də şəhid ailələrinin, Qarabağ müharibəsi veteranları və əlillərinin sosial müdafiəsidir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, dövlətimizin başçısının bu istiqamətdə müvafiq fərman və sərəncamlar imzalaması əlil və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə müstəsna töhfələr verir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Şəhid ailələri və müharibə əlillərinin həyat şəraitinin və rifahının yaxşılaşdırılması məqsədilə dövlət tərəfindən daim xüsusi diqqət və həssaslıqla layihələr icra olunur. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi Zəfər qazandığı Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının göstərişi əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir. Sosial dəstək paketi üzrə post-müharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 106 min şəxsə 119 min aylıq sosial ödəniş, 25 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Statistik göstəricilər əsasında deyə bilərik ki, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 83,7 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 2,3 min şəxs 76 min reabilitasiya vasitəsi, o cümlədən 493 şəxs 611 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 27 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 12,9 min şəxs özünüməşğulluq proqramına cəlb olunub. eyd olunan sosial dəstək paketi ümumilikdə 131 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 391 min xidmət göstərilib.






### "44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN ƏLDƏ ETDİYİ BU BÖYÜK QƏLƏBƏNİN ƏSAS QƏHRƏMANI AZƏRBAYCAN ƏSGƏRİ VƏ ZABİTİDİR"

Göründüyü kimi, Azərbaycanda Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə yüksək dövlət qayğısı davamlı xarakter daşıyır və bu siyasətin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər Heydər Əliyev tərəfindən 1994-cü il avqust ayının 26-da imzalanan "Azərbaycan Respublikasını erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Fərman müharibə əlillərinin sosial ehtiyaclarının ödənməsi istiqamətində atılan ilk addım olub. Həmin Fərmanın imzalanması ilə müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək məqsədilə tədbirlərə start verilib. Bu gün bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə Zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir. Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilib.

### "ŞƏHİDLƏRİMİZİN ƏZİZ XATİRƏSİ HƏR BİRİMİZ ÜÇÜN MÜQƏDDƏSDİR"

Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Dövlət başçısı çıxışlarının birində qeyd etdiyi kimi, "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək". Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Prezident İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir. Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir".

Şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil və fərdi evlə təminatı tədbirləri davam edir. Prezident İlham Əliyev "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" 2021-ci il 25 yanvar tarixli nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə məlum Sərəncamına əsasən, 2014-cü il yanvarın 1-dən 2023-cü il yanvarın 1-dək yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alınmış şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin, habelə uçota alınma tarixindən asılı olmayaraq, Çernobıl AES-də qəzanın ləğvi (o cümlədən hərbi xidmət vəzifələrinin (xidməti vəzifələrin) yerinə yetirilməsi) ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin mərhələlərlə mənzil və ya fərdi evlə təmin edilməsi üçün Sərəncamda qeyd edilən 2021-2025-ci illər dövrü 2021-2030-cu illər olaraq müəyyən edilib.



### 6,8 MİN MƏNZİL VƏ FƏRDİ EV VERİLİB

Hər il dövlət büdcəsinin tərtibi prosesində dövlət əsaslı vəsait qoyuluşunda (investisiya xərclərində) bununla bağlı vəsait də nəzərdə tutulub. Mühüm sosial proqramlardan biri olan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı tarixi Zəfərimizlə başa çatan Vətən müharibəsindən sonra qeyd etdiyimiz kimi, 5 dəfə genişlənib. onlara 6,8 min mənzil və fərdi ev verilib. Əlbəttə ki, dövlət başçısının bu kateqoriyadan olan insanların sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi məmnunluq yaradır. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu, dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir. 2020-2025-ci illər ərzində şəhid ailələrinin üzvlərindən 1200 nəfərə qədəri müalicəyə göndərilib. Bu addımlar onu göstərir ki, dövlətimiz tərəfindən bu qəbildən olan insanlar təkcə evlə təmin olunmur, eləcə də bu və ya digər sosial addımların atılması da onların təminatına yönəldilib.

### SOSİAL SİYASƏTİN ANA XƏTTİ

Bütün bunlarla yanaşı, bildiyimiz kimi, cari ilin iyulun 1-dən Azərbaycan Prezidenti İlham Əliyevin məlum Fərmanı ilə müavinət və təqaüdlər artırıldı. Belə ki, şəhid ailəsi, 20 Yanvar şəhidinin ailəsi, Əfqanıstanda həlak olan hərbçilərin ailələri üçün Prezidentin aylıq təqaüdü - 700 manat, müharibə, 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrini yerinə yetirmək və Çernobıl AES-də hərbi xidmət ilə əlaqədar əlilliyi olan şəxslərə Prezidentin aylıq təqaüdü, orqanizmin funksiyalarından asılı olaraq - 81-100 faiz pozulmasına görə (I dərəcə) - 600 manat; 61-80 faiz pozulmasına görə (II dərəcə) - 500 manat; 31-60 faiz pozulmasına görə (III dərəcə) - 400 manat müəyyən edilib. Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2200 manata, Azərbaycanın Milli Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü 2000 manata çatdırılıb.

Şəhid ailələrinə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Şəhid ailələrinə və müharibə əlillərinə, milli qəhrəmanlara verilən Prezident təqaüdünün də məbləği ötən dövrdə mütəmadi artırılıb, bu qəbildən olan insanların uşaqlarına aylıq sosial müavinətin verilməsi təmin olunub. Bununla da, şəhid ailələrinin sosial müdafiəsi ildən-ilə yaxşılaşıb, dövlətimizin başçısının bu sahədə həyata keçirdiyi tədbirlər ictimaiyyət tərəfindən hər zaman böyük rəğbət və məmnunluqla qarşılanır.

Prezident İlham Əliyevin sosial məsələlərin həlli ilə bağlı ortaya qoyduğu siyasi iradə və ardıcıl praktik addımlar, Azərbaycanın sosialyönümlü dövlət modelini seçdiyini bir daha sübut edir. Şəhid ailələri və qazilərə diqqət və qayğı, onların sosial problemlərinin həlli, sosial məişət şəraitinin yaxşılaşdırılması bu siyasətin ana xəttini təşkil edir.

**Zümrüd BAYRAMOVA**

# Xalqın milli kimliyi - Ana dili

## Prezident İlham Əliyev: "Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir"




***Zəngin tarixi köklərə malik Azərbaycan dili - ana dilimiz xalqımızın varlığını, kimliyini sübut edən amilllərdəndir. Hər bir xalqın milli-mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən, onu tanıdan, təbii ki, ana dilidir. Ana dili dövlət rəmzlərimiz olan bayraq, gerb, himn kimi müqəddəsdir. Dil hər bir millətin varlığını ifadə edən, maddi, mənəvi irsini qoruyan və inkişaf etdirən vasitədir. Milli şüurun və milli kimliyimizin formalaşmasında rolu olan dilimiz zaman-zaman qorunub-saxlanılmış və bu günümüzə qədər gəlib çatmışdır.***

Dilin saflığı, onun qorunması yolunda Azərbaycan xalqı illər uzunu mübarizə və mücadilə aparıb. Azərbaycan dili milli müstəqilliyin, suverenliyin, istiqlalın, Azərbaycan ideologiyasının əsaslarından biri olduğundan, varlığımızı sübut edən bu məfhum müasir günümüzə qədər təkmilləşərək, xalqa təqdim olunub. Ulu Öndər Heydər Əliyev deyirdi: "Hər bir millətin dili onun üçün çox əzizdir. Bizim üçün Azərbaycan dili, ana dilimiz həddindən artıq əzizdir. Çünki çox illər ana dilimiz, Azərabycan dili həyatımızda geniş yer ala bilməmişdir. Amma buna baxmayaraq, hər bir azərbaycanlı dilin qorunub saxlanılmasında az da olsa, çox da olsa, xidmətlərini göstərmişdir. Xüsusən, bizim yazıçılarımız, ədəbiyyatşünaslarımız, şairlərimiz o ağır dövrdə Azərbaycan dilinin yaşamasında böyük xidmətlər göstərmişlər. Mən bu gün böyük iftixar hissi ilə deyə bilərəm ki, Azərbaycan dili XX əsrdə böyük inkişaf yolu keçmişdir. İndi baxın bizim dilimiz nə qədər zəngindir, nə qədər məlahətlidir, nə qədər şirindir və bütün fikirləri ifadə etməsi üçün nə qədər söz ehtiyatlarına malikdir. Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin edəcəyik".

Dil xalqın tarixi, mədəniyyəti, bu günü və gələcəyidir. Dil mədəniyyətdir, dil ünsiyyətdir. Dil xalqın varlığıdır. Dil xalqın tarixi, mədəniyyəti, bu günü və gələcəyidir. Dilin saflığı, onun qorunması yolunda illər uzunu mübarizə və mücadilə aparılıb. Dünyada ən gözəl, ən məlahətli, ən şirin nemət dildir. Ən çətin zamanlarda belə dil qorunub. Gözəl bir ifadə var: nə qədər ki, əsarət altına alınmış xalq öz dilini dərindən bilir, o sanki öz zindanının açarını əlində saxlayır... Demək, dili bilmək, onun saflığını qorumaq xalqın varlığını yaşatmaqdır. Dünya təcrübəsi göstərir ki, bir xalqın xalq olması üçün dilinin varlığı mütləqdir.

### ANA DİLİMİZ TARİXİN MÜXTƏLİF DÖNƏMLƏRİNDƏ

Bəli, Azərbaycan xalqı xoşbəxt bir xalqdır ki, əsrlərə söykənən dilini qoruyub saxlaya bilmişdir. Bu əsasda formalaşdırılan milli-mənəvi dəyərlər sistemi zaman-zaman qorunub-saxlanılmış, bu günümüzə qədər gəlib çatmışdır. Bildiyimiz kimi, bizim ana dilimiz bu günə kimi, çox ziddiyyətli yollar keçsə də, öz zənginliyini və saflığını qoruyub saxlamışdır. Tarixin dönəminə nəzər salsaq görərik ki, Azərbaycan dili ərəb istilası dövründə iki əsr əsarət altında olmuş və bu baxımdan da, dilimizə ərəb-fars mənşəli sözlər daxil olmuşdur. Ərəb əlifbası dəyişdirildikdən sonra latın qrafikasına keçsək də, bu, uzun sürməyən bir proses oldu. Bildiyimiz kimi, 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Bu Komitəyə Azərbaycan dili üçün latın qrafikalı əlifba tərtib etmək tapşırığı verildi. Bu yeni əlifbaya keçilməsi yolunda atılmış ilk ciddi addım oldu. 1923-cü ildən etibarən, latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə keçirilmiş Birinci Ümumittifaq Türkoloji Qurultayın tövsiyəsinə əsasən, 1929-cu il yanvarın 1-dən etibarən, Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi.

Xüsusi olaraq vurğulayaq ki, 1969-cu ildən başlayaraq, Azərbaycan dili sahəsində aparılan islahatlar öz nəticəsini verməyə başladı. Belə ki, Ümummilli Lider Heydər Əliyev ana dilinin saflığının qorunması üçün mühüm addımlar atdı. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini, Azərbaycan dilini və dövlət dilini mükəmməl bilməlidir", - deyən Ulu Öndər Heydər Əliyev dil uğrunda mübarizədə qətiyyət və prinsipial mövqedən çıxış edirdi. Ümummilli Liderin qətiyyəti və məntiqi nəticəsində, Azərbaycan Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olduğunu təsdiq edən maddə daxil edildi. 1978-ci ilin IX çağırış Azərbaycan SSR Ali Sovetinin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş VII sessiyasında məruzə ilə çıxış edən Ulu Öndərin təklifi ilə 73-cü maddəni aşağıdakı redaksiyada verməK təklif olunmuşdur: "Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir."

### LATIN QRAFİKALI AZƏRBAYCAN ƏLİFBASI

Sovet imperiyasının buxovlarından xilas olan Azərbaycanda 1990-cı ildən yenidən latın qrafikalı əlifbaya keçidlə bağlı təşəbbüslər irəli sürülməyə başlanılmışdır. Azərbaycan Əlifba Komissiyasının tərtib etdiyi yeni əlifba 1992-ci ildə təsdiq edilmiş və tətbiq edilməyə başlanılmışdır.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci il noyabrın 12-də Referendum yolu ilə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Hər hansı bir dilin dövlət dili statusu alması, şübhəsiz ki, hər bir dövlətin bir dövlət kimi formalaşması ilə, bilavasitə bağlıdır. İmperiya dövründə ana dilimizə qarşı edilmiş haqsızlıq aradan qaldırıldı, onun hüquqları qorundu və cəmiyyətdəki mövqeləri tam bərpa edildi. Müstəqilliyimizin qazanılmasından sonra yaranmış tarixi şərait xalqımızın dünya xalqlarının ümumi yazı sisteminə qoşulması üçün yeni perspektivlər açdı və latın qrafikalı Azərbaycan əlifbasının bərpasını zəruri etdi. Bu isə, müvafiq qanun qəbul olunması ilə nəticələndi. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günü kimi qeyd olunması ilə bağlı 9 avqust 2001-ci ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən Fərman imzalandı. Ümummilli Lider Heydər Əliyevin imzaladığı sərəncamlar əsasında Azərbaycan dilinin təkmilləşməsinə, onun inkişafına yol açdı. Daha sonra Ulu Öndər Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Sərəncamı da milli-mənəvi dəyərlərin qorunub-saxlanması istiqamətində həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edən amillərdəndir.

Ulu Öndərin böyük önəm verdiyi dil siyasəti onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla davam etdirilir.

### AZƏRBAYCAN, VƏTƏN, TORPAQ SÖZLƏRİNİ İFADƏ ETDİYİMİZ DİL

Dövət başçısının yürütdüyü dil siyasəti Azərbaycan dilinin inkişafına öz töhfələrini verir. Dövlətimizin başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında", "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında", "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamları, "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanı və bu istiqamətdə görülən işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür. Prezident İlham Əliyevin 2004-cü il 27 dekabr tarixli Sərəncamına uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunaraq ölkədəki bütün kitabxana şəbəkəsinə hədiyyə edilmişdir. Prezident İlham Əliyev tərəfindən bir-birinin ardınca imzalanan sərəncamları Azərbaycan dilinin inkişafında öz sözünü deyib. Bu gün müstəqil bir ölkənin vətəndaşı olaraq, Ana dilimizi qorumaq borcumuzdur. Bu dil bizim ana laylamızın dilidir. Azərbaycanın dilidir. Milyonlarla insanımızın danışdığı dildir. Sevgimizin dilidir ki, dilimizdən, qəlbimizdən axıb gələn müqəddəs kəlamları - Azərbaycan, Vətən, Torpaq sözlərini bu dillə ifadə edirik. Hər bir Azərbaycan vətəndaşının borcudur ki, bu dili sevsin. Azərbaycan dili bu gün planetimizin 70-dək ölkəsində yaşayıb-yaradan 50 milyondan artıq bir xalqın dili kimi formalaşıb. Prezident İlham Əliyevin biddirdiyi kimi, "Bu gün dünyada 50 milyondan çox insan üçün Azərbaycan dili ana dilidir"

Azərbaycan dili milli müstəqilliyin, suverenliyin, istiqlalın, Azərbaycan ideologiyasının əsaslarından biri olduğundan, varlığımızı sübut edən bu məfhum müasir günümüzə qədər təkmilləşərək, xalqa təqdim olunub. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub-möhkəmləndirmişdir. Ona görə də, xalqımıza ulu babalardan miras qalan bu, ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı və daim qayğı ilə əhatə etməlidir.

Hər bir sahədə çalışan insan dilin qayda-qanunlarına əməl etməyə vətəndaş olaraq borcludur. Dilin qorunması, işlənməsi, yad ünsürlərdən mühafizəsi, danışıq dilində sözlərin tələffüzü və digər məsələlər vacib hesab olunur. Dilin təmizliyi uğrunda mübarizə aparan və milli dilin inkişafına ömürlərini həsr edən simaların və şəxsiyyətlərin qarşısında məsuliyyətliyik. Bu gün çox təəssüf hissi ilə qeyd etməliyik ki, dilimizə yad olan sözlərlə teztez rastlaşırıq. Milli mətbuatımızda da belədir. Jurnalistin əsas materialı sözdür. Söz fikrin gerçəkliyinin ifadəçisidir. Mətbuatda informasiya dil və söz vasitəsilə çatdırılır. Əlbəttə ki, jurnalist peşəkarlığının əsas elementlərindən biri dildən istifadə ilə bağlıdır. Danışıq dilində, informasiyanın çatdırılmasında fikrin aydın və lakonik şəkildə çatdırılması, yeri gələndə, nitqdə hiss-həyəcan və emosiyanın duyulması, bəzən kəskinliyin, sərtliyin görünməsi - bütün bunlar jurnalist üçün vacib hesab edilən amillərdir. 1 Avqust Azərbaycan Dili və Əlifbası Günüdür. Hər kəs Azərbaycan dilini qorumalı və onun müqəddəsliyini dərk edərək varlığı qədər sevməlidir və buna borcludur.

Bu gün Azərbaycan dili hərtərəfli inkişaf edir və sevindirici haldır ki, dünyanın ən mötəbər tribunalarından eşidilir. Ana dilimiz Azərbaycan dilidir və bu dili vətənini, xalqını sevən hər bir azərbaycanlı bilməlidir. Ulu Öndər gənclərə tövsiyə edərək deyirdi: "Bizim gənclərə deyirəm ki, rus dilini yaxşı bilin, ingilis, fars, ərəb, fransız dillərini də yaxşı bilin. Amma bunların hamısından yaxşı öz Azərbaycan dilimizi öyrənin. Əgər bunu bilməsən, sən tam azərbaycanlı olmursan."

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan Yaxın Şərqin yeni enerji xəritəsində

*Yaxud, Suriyadan keçən qaz kəmərlərinin perspektivləri*

***SVOP razılaşmasına əsasən Azərbaycandan ixrac olunan qaz Kilis üzərindən Suriyaya nəql olunacaq. Avqustun 2-də Azərbaycan, Suriya və Qətərdən olan rəsmilərlə Kilisdə mərasim keçiriləcək. Azərbaycan üçün bu, təkcə iqtisadi əhəmiyyət daşımır, eyni zamanda şaxələndirilmiş ixrac imkanlarının yeni bir regionda tətbiqidir. Suriyaya qaz nəqli ciddi enerji problemi olan Suriyaya bir dəstəkdir. Nəzərə alsaq ki, Suriya "Ərəb qaz şəbəkəsi" sisteminə qoşulub, deməli Azərbaycan bu şəbəkənin digər üzvləri Livan, İordaniya və Misirə də öz qazını ixrac edilə bilər.***



İyulun 12-də Azərbaycanda səfərdə olan Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Prezident İlham Əliyevlə görüşdə Suriyanın hazırda ciddi enerji problemi ilə üzləşdiyini bildirib. Yaxın zamanlarda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçiriləcəyi vurğulanaraq bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verəcəyi qeyd olunub. Azərbaycanın Suriyanın energetika sahəsinin bərpasına töhfə vermək iqtidarında olduğu diqqətə çatdırılıb. Səfər zamanı SOCAR ilə Suriya hökuməti arasında Anlaşma Memorandumunun imzalanması ilə iki ölkə arasında enerji sahəsində əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Suriyaya Türkiyə üzərindən ildə 1,2 milyard kubmetr həcmində qaz ixracı planlaşdırılır. Bu layihə, həmçinin Suriyanın zədələnmiş elektrik infrastrukturunun bərpasına töhfə verəcək.





Suriyada illərdir davam edən münaqişədən sonra infrastrukturun bərpası və iqtisadi sabitliyin təmin edilməsi prioritet məsələdir. Azərbaycanın bu mərhələdə iştirakı, eyni zamanda enerji geosiyasətində yeni balans nöqtələri yaradır. Azərbaycan Cənubi Qafqazdan Yaxın Şərqə enerji investisiyası edən ilk ölkələrdən biri kimi, regiondaxili və regionlararası enerji əməkdaşlığının təşəbbüskarına çevrilir. Suriyada qaz hasilatı Azərbaycanın enerji marşrutlarının şaxələndirməsi baxımından da vacibdir. Bu fəaliyyətlə Azərbaycan həm də regionda nüfuz uğrunda yarışan böyük güclərlə balanslı münasibət qurmaq imkanı əldə edir.

...2024-cü ilin sonunda Suriyada Bəşər Əsəd rejiminin devrilməsi regional enerji strategiyasına yenidən baxılmasına yol açdı. Suriya ərazisindən keçən qaz kəmərləri yenidən gündəmdədir - indi yeni siyasi reallıq kontekstində. Bu, Yaxın Şərq üçün nə deməkdir? 2024-cü ilin dekabrında Suriyada siyasi reallıq kökündən dəyişdi: prezident Bəşər Əsəd rejimi dağıldı və Dəməşqdə "Həyat Təhrir əl-Şam" qruplaşmasının faktiki nəzarəti altında olan müxalifət qanadının nümayəndələrinin daxil olduğu keçid hökuməti yaradıldı. Uzun müddət qeyri-mümkün kimi görünən bu hadisə gözlənilmədən Suriyanı beynəlxalq enerji siyasətinin diqqət mərkəzinə qaytardı. Əgər əvvəllər Suriya ərazisindən qaz kəmərlərinin çəkilməsi ilə bağlı danışıqlar geosiyasətə və sanksiyalara çevrilirdisə, bu gün Dəməşq yeni administrasiyanın rəhbərliyi altında özünü Fars körfəzinin ən zəngin yataqları ilə Avropanın enerjidən asılı bazarı arasında tranzit körpü kimi təqdim etməyə çalışır.

Dünyanın ən böyük LNG təchizatçılarından biri olan Qətər uzun illərdir ki, quru marşrutlarını genişləndirməyə çalışır. Səudiyyə Ərəbistanı, İordaniya, Suriya və Türkiyə ərazisindən keçən qaz kəməri layihəsi hələ 2009-cu ildə müzakirə edilmişdi, lakin Əsəd tərəfindən İranın xeyrinə alternativ marşrut seçən İran-İraq-Suriya "İslam Qaz Boru Kəməri"nin qarşısını kəsmişdi. İndi ssenari başqa cür cərəyan edir. Artıq 2025-ci ilin yanvarında Qətər Suriyaya humanitar həcmdə qaz tədarük etməyə başlayıb, elektrik təchizatı üçün müvəqqəti müqavilələr imzalayıb. Türkiyə də öz növbəsində sabitlik olduğu təqdirdə qonşu Suriya ərazisindən keçən quru qaz kəmərinin müzakirəsini bərpa etməyə hazır olduğunu bəyan edib.

## Türkiyə: Üç dənizi birləşdirən mərkəz

Ankara şərq və cənub qaz istehsalçıları ilə qərb bazarları arasında əsas enerji kəmərinə çevrilməyə çalışır. Azərbaycan qazı artıq TANAP vasitəsilə Türkiyədən keçərək Avropaya keçir və İran qazı da daxili istehlak üçün verilir. Qətər marşrutunun ortaya çıxması ilə Türkiyənin enerji axınlarına təsiri daha da artacaq. Ankara sabit Suriya dövlətinin yaradılmasına Qətər resurslarını Türkiyənin mövcud infrastrukturu ilə birləşdirəcək boru kəmərinin tikintisi üçün pəncərə kimi baxır. Belə bir boru kəməri təkcə Suriyadan keçməklə TANAP-a birləşdirilə bilməz, həm də Misir, İordaniya və Suriyanın cənubunu birləşdirən Ərəb Qaz Boru Kəməri şəbəkəsinin qurudakı uzantısına çevrilə bilər. Bu, dəniz alternativləri ilə müqayisədə Yaxın Şərq qazının Avropaya nəqli üçün daha texnoloji cəhətdən mümkün və sərfəli marşrut perspektivini açır.

Belə ki, İsraildən Kipr və Yunanıstandan keçərək İtaliyaya qədər dərin dəniz boru kəmərini nəzərdə tutan EastMed (Şərqi Aralıq dənizi Boru Kəməri) layihəsi yüksək xərc və texniki risklərə görə tənqidlərlə üzləşib. 2022-ci ildə Birləşmiş Ştatlar EastMed-i dəstəkləməkdən rəsmən imtina etdi və bu, faktiki olaraq onu şübhə altına aldı. Bunun fonunda Suriyadan Türkiyəyə quru yolu xərclər, vaxt və logistika baxımından daha real görünür. 2025-ci ilin mayında Türkiyənin energetika naziri Alparslan Bayraktar Türkiyənin Kilis vilayəti ilə Suriyanın Hələb şəhəri arasında keçidin tikintisinin başa çatdığını açıqlamışdı. Suriya elektrik stansiyaları üçün qaz iyun ayından axmağa başlayacaq. Bundan əvvəl, 2024-cü ilin dekabrında o, həmçinin qeyd etmişdi ki, Suriyada sabitlik bərpa olunarsa, Qətərlə boru kəməri layihəsinin həyata keçirilməsi mümkündür.

Qətər-Türkiyə marşrutu Ankaranın bir sıra əsas maraqlarına cavab verir. Birincisi, Türkiyənin Avropaya qaz nəqli üçün tranzit ölkə statusunu gücləndirir. İkincisi, İran və İraqdan qeyri-stabil tədarüklər səbəbindən qışda dayanmaların baş verdiyi ölkənin cənub-şərqi üçün alternativ mənbə yaradır. Üçüncüsü, Suriyanın yeni hökuməti ilə həm enerji, həm də siyasi baxımdan əlaqələri gücləndirir. Ankara həmçinin Suriya infrastrukturunun bərpasında iştiraka siyasi təsir aləti kimi baxır. Enerji axınlarına nəzarət onun danışıqlar mövqelərini gücləndirir, o cümlədən suriyalı qaçqınların geri qaytarılması məsələsində. Uzunmüddətli perspektivdə Türkiyə bu modeli enerji vasitəsilə iqtisadi inteqrasiyanın davamlı formuluna çevirməyə ümid edir.

Məsələ təkcə siyasi baryerlərin aradan qaldırılması ilə məhdudlaşmır. Qətər-Türkiyə qaz kəməri layihəsi texniki və maliyyə baxımından son dərəcə böyük miqyaslıdır. Boru kəməri çox uzun və bahalıdır, onun iqtisadi məqsədəuyğunluğu dünya bazarında qaz qiymətlərindən asılıdır. İnvestisiya cəlb etmək üçün qazın qiyməti kifayət qədər yüksək qalmalıdır, əks halda belə infrastrukturun qaytarılması problemlidir. Bundan əlavə, qlobal oyunçuların layihəyə necə reaksiya verəcəyi ilə bağlı qeyri-müəyyənlik var. Məsələn, ABŞ-ın özü 2019-cu ildən qaz ixracatçısına çevrilib və Qətərdən gələn boru kəməri ilə daha az maraqlanır və inkişaf etmiş LNG bazarı magistral təchizatı ilə rəqabət aparır.

## İştirakçıların hərəkətlərinin arxasında nə dayanır?

Vəziyyətə rasional baxsanız, burada edilə biləcək bəzi müşahidələr var. Regional enerji vəziyyəti yeni oyunçuların cəlb olunması və köhnələrin getməsi ilə daha da mürəkkəbləşib. Əsas aktorların hər biri öz məqsədlərini güdür və onların iştirakı həm faydalar, həm də risklər daşıyır. Gəlin onların hər birinə nəzər salaq. Dəməşqdə yeni hakimiyyətə gələn müxalif qüvvələr müharibədən sonrakı yenidənqurma üçün tanınma və resurslar axtarırlar. Tranzit qaz kəməri kimi beynəlxalq layihələrin işə salınması onların dünya miqyasında investisiyalar, iş yerləri və legitimlik əldə etmələri üçün bir şansdır.

***Ardı Səh. 5***

Əvvəli Səh. 4

Bununla yanaşı, Qərb ehtiyatlı olaraq qalır: yeni hökumət islamçı qüvvələrdən ibarətdir, onların bəziləri keçmişdə qadağan olunmuş təşkilatlarla əlaqələri olub. Risk həmçinin Suriya müxalifətinin müxtəlif qrupları arasında daxili ziddiyyətlər və bütün əraziyə nəzarəti saxlamaq zərurəti ilə bağlıdır. Hər hansı zorakılıq və ya radikal təzahürlər investorları və beynəlxalq tərəfdaşları qorxuda bilər.

Türkiyə. Baş verən dəyişikliklərdən əsas faydalanan isə Ankaradır. Türkiyə rəhbərliyi müharibə boyu Suriya müxalifətini dəstəkləyib və indi faktiki olaraq Dəməşqdə müttəfiq hökuməti qəbul edir. Qısa müddətdə Ankara artıq Suriyanın elektrik enerjisi sektorunun bərpasına yardım etməyə hazır olduğunu bəyan edib ki, bu da onun ölkədəki rolunu gücləndirəcək. Türkiyə üçün risklər ilk növbədə təhlükəsizliklə bağlıdır: qeyri-sabit ölkədən keçən boru kəməri həssasdır və layihəni qorumaq üçün uzunmüddətli hərbi və siyasi mövcudluq tələb olunacaq.

Qətər. Qətər ən böyük qaz ixracatçılarından biridir və nəticədə Türkiyə və Avropaya quru kəməri layihəsini həyata keçirəcəyinə ümid edərək uzun illər Suriyadakı müxalifət qüvvələrinə dəstək verir. Qətər dünyada üçüncü ən böyük təbii qaz ehtiyatına malikdir - təqribən 24 trilyon kubmetr, baxmayaraq ki, ölkə artıq LNG üzrə dünyanın aparıcı ixracatçısına çevrilib, Türkiyəyə boru kəmərinin çəkilməsi Avropa bazarına tədarükləri daha sürətli və ucuzlaşdıracaq. Bununla belə, Doha riskləri də nəzərə alır. İlk növbədə iqtisadi: boru kəməri layihəsi milyardlarla dollar dəyərində qiymətləndirilir və investorlar konsorsiumu tələb olunur. İkincisi, siyasi: yaxın vaxtlara qədər oxşar layihələrin həyata keçirilməsinə Qərbin sanksiyaları mane olurdu.

Bununla belə, 2025-ci ilin mayında Tramp administrasiyası Sezar Aktının əsas müddəalarını ləğv edərək, Suriya ilə enerji əməkdaşlığının qarşısındakı maneələri effektiv şəkildə aradan qaldırdı. Bu, Qətərə infrastrukturun yenidən qurulmasında birbaşa iştiraka rəsmi çıxış imkanı verdi və Avropaya quru qazı ixracı planına qayıtmaq imkanını açdı.

İran. Əsədin itirilməsi Tehrana ciddi zərbə oldu. İran İraq və Suriya vasitəsilə Aralıq dənizinə açılan quru dəhlizini itirdi və gələcəkdə qazını ixrac etməyi planlaşdıra bilərdi. Əvvəllər fəal şəkildə lobbiçilik edilən İran-İraq-Suriya layihəsi faktiki olaraq dondurulub. Üstəlik, 2024-cü ilin dekabrından İran neftinin Suriyaya tədarükü dayandırılıb - Tehrana düşmən olan yeni hökumət Dəməşqin əvvəllər elektrik enerjisi istehsalı üçün verdiyi yanacağı artıq almır. Nəticədə İran təsir rıçaqlarını itirdi və Suriya yanacaq qıtlığını kəskin şəkildə hiss etməyə başladı.

Geosiyasi baxımdan İranın Suriyada təsiri kəskin şəkildə azalıb: onun dəstəklədiyi "müqavimət oxu" artıq Dəməşqdə hakimiyyətdə deyil. Buna cavab olaraq bölgədəki iranpərəst qüvvələr yeni layihələri, məsələn, İraqdakı şiə milis qrupları və ya Suriyada qalan müttəfiqlər vasitəsilə sabotaj etməyə cəhd edə bilər. Artıq əks reaksiya var: Tehrana bağlı bir sıra iraqlı siyasətçilər və milis komandirləri açıq şəkildə Əhməd əl-Şaraa hökumətinin tanınmasının əleyhinədirlər. Bu ziddiyyətlər tranzit marşrutlarının təhlükəsizliyinə təhlükə yaradır. Lakin sanksiyalar və daxili problemlərlə zəifləmiş İran Suriyanın Ankara və Dohaya istiqamətlənməsinin qarşısını güclə ala bilməyəcək.

İraq. Qonşu İraq qeyri-müəyyən vəziyyətdədir. Bir tərəfdən Bağdad şiə hökuməti tarixən Əsəd rejimi və İranla əməkdaşlıq edib və buna görə də Dəməşqdə hakimiyyət dəyişikliyi təşvişə səbəb olub. İlk günlərdə yaraqlıların sıçrayışından və qaçqın axınından ehtiyatlanan Bağdad hətta sərhəd keçidlərini bağladı və qoşunları sərhədə çəkdi. Digər tərəfdən, praqmatik mülahizələr tez bir zamanda üstünlük təşkil etdi: İraq Suriyanın yeni hakimiyyət orqanları ilə əlaqə qurmağa qərar verdi. Artıq bu ilin aprelində İraqın baş naziri Məhəmməd Şia əl-Sudani Dohada Suriya prezidenti Əhməd əl-Şara ilə görüşüb və onu Ərəb Liqasının Bağdad sammitinə dəvət edib. Eyni zamanda İraq iqtisadi layihələri, ilk növbədə Kərkük-Bəniyas neft kəmərinin bərpasını müzakirə etmək üçün Dəməşqə nümayəndə heyəti göndərib.




# Azərbaycan Yaxın Şərqin yeni enerji xəritəsində

*Yaxud, Suriyadan keçən qaz kəmərlərinin perspektivləri*

## Kərkük-Banias qaz kəməri

Şimali İraqdan Suriyanın Aralıq dənizindəki limanına uzanan bu boru kəməri 2003-cü ildən fəaliyyət göstərmir. Onun yenidən işə salınması İraqa əhəmiyyətli faydalar gətirəcək, ixrac qabiliyyətini gündə təxminən 300.000 barel artıracaq və tədarük marşrutlarını şaxələndirməyə imkan verəcək (hazırda İraq nefti ya Fars körfəzinə, ya da Türkiyəyə boru kəməri vasitəsilə gedir). Kəskin enerji resursları çatışmazlığı yaşayan Suriyanın yeni rəhbərliyi də bu sövdələşmədə maraqlıdır - tranzit haqqı və neft emalı zavodları üçün neftin bir hissəsini almaq imkanı yanacaq böhranından əziyyət çəkən Suriya üçün faydalı olardı.

Bununla belə, İraqın iştirakı da risklər daşıyır: Bağdaddakı iranpərəst elementlər HTS qüvvələri ilə yaxınlaşmağa qarşıdır. Bağdadda keçirilən Ərəb Liqasının sammiti ərəfəsində İraq parlamentinin 50-dən çox üzvü əl-Şərrə dəvətin ləğv edilməsini tələb edib. Bununla belə, iqtisadi baxımdan İraq Suriyanın yenidən qurulmasında iştirak etməyi strateji mənada görür - həm investor (onun dövlət şirkətləri gedən iranlıların əvəzinə Suriyanın neft və qaz yataqlarının inkişafına sərmayə qoya bilər), həm də işəgötürən kimi (Bağdad Asiyadan olanlar əvəzinə suriyalı miqrant işçilərin cəlb edilməsini müzakirə edir).



## Avropa: izləyir və hazırlaşır

Avropa Birliyi də baş verənlərə maraq göstərir. Brüssel böyük açıqlamalar verməsə də, pərdə arxasında Suriya dəhlizinin Avropanın cənub-şərqinə qaz tədarükü layihəsinə birləşdirilməsinin mümkünlüyü müzakirə olunur. Bəzi KİV-lərin məlumatına görə, Avropa Komissiyası Suriya marşrutunu "sabitlik və siyasi təminatlar nəzərə alınmaqla hipotetik olaraq mümkün" adlandırır. Son on ildə ilk dəfə Suriya artıq enerji çıxılmaz nöqtəsi deyil. Yeni siyasi konfiqurasiyada o, Qətər, Türkiyə və Cənubi Avropanı birləşdirən tamhüquqlu tranzit mərkəzinə çevrilə bilər.

Hər üç tərəf faydalanacaq - təchizatçı kimi Qətər və Azərbaycan (bura Orta Asiya ölkələrindən gələcək karbohidrogen ehtiyatlarını da əlavə etmək olar), tranzit ölkə kimi Türkiyə və öz enerjisini alan və modernləşdirən ölkə kimi Suriya. Lakin layihənin taleyi sabitlik, təhlükəsizlik və Dəməşqin yeni hakimiyyətinin siyasi dönüşü real infrastruktur transformasiyasına çevirə bilmə sürətindən asılıdır.

**V.VƏLİYEV**

# Separatçılar İrana təzyiqləri artırır



İranla sərhəd yaxınlığında kürd və bəluc qrupları fəallığını artırır. İranın İraqla qərb sərhədi yaxınlığında (Kürd bölgəsi) və Əfqanıstan və Pakistanla həmsərhəd olan Sistan və Bəlucistan əyalətlərində təhlükəsizlik qüvvələrinə hücumlar getdikcə daha çox baş verir. Ekspertlərin fikrincə, bu cür fəallıq son İran-İsrail münaqişəsinin birbaşa nəticəsidir. Xaricdən fəaliyyət göstərən və İranın biznes elitasına yaxın olan "Amwaj Media" nəşri İranın sərhəd bölgələrində hücumların intensivləşməsi barədə məlumat yayıb. Onun hesablamalarına görə, etnik azlıqların yaşadığı bölgələrin İslam Respublikasından ayrılması ideyasını dəstəkləyən kürd və bəluc qrupları İran və İsrail arasında 12 günlük müharibədən sonra fəallıqlarını artırmağa çalışırlar. Son hadisələrdən biri də Zahedanda (Sistan və Bəlucistan əyalətinin inzibati mərkəzi) ictimai asayişə nəzarət edən yarı-rəsmi hərbiləşdirilmiş qüvvələrin Bəsic batalyonlarının komandiri Cavad Kərim Koştenin öldürülməsi olub.

İyulun 26-da 6 nəfərin ölümü, 20 nəfərin yaralanması ilə nəticələnən Zahedan ədliyyəsinə hücum ayrı bir epizod idi. Eyni zamanda, İran-İsrail münaqişəsi başa çatdıqdan sonra hazırda ölkənin qərbində Kürdüstan əyalətində yerləşən Bana şəhərində İran sərhədçiləri ilə hərbiləşdirilmiş qruplar arasında müntəzəm toqquşmalar baş verir. İran kürd və bəluc qruplarının hərəkətlərini birbaşa "Amerika-İsrail sui-qəsdi" ilə əlaqələndirir. Belə ki, İslam Respublikası Kəşfiyyat Nazirliyinin münaqişənin nəticələri ilə bağlı son hesabatında bildirilir ki, yəhudi dövləti guya ötən ay Bəluc separatçılarının himayəsi altında yüzlərlə əcnəbi muzdlu əsgəri cəlb etməyə və təşkilatlandırmağa cəhd edib və onların hərəkətləri hazırda İranın hüquq-mühafizə orqanları tərəfindən izlənilir.

İran Kəşfiyyat Nazirliyinin hesabatında yaraqlıların hansı qruplaşmaya aid olduğu göstərilməsə də, "Ölkənin cənub-şərq sərhədi yaxınlığında yerləşən və İran ərazisinə soxulmağa hazırlaşan 300 əcnəbi terrorçunun yerini müəyyən etmək, həmçinin onların sonrakı hərəkətinin qarşısını almaq mümkün olub" deyilir. İranın xüsusi xidmət orqanları 12 günlük müharibədə baş verən hadisələri şərh edərək bildiriblər ki, onlar Suriyadan silahlıların İran ərazisinə sızmasının qarşısını ala biliblər, onların sayı 150 nəfərə yaxındır və görünür, müharibə zamanı İrana hücum etmək istəyiblər.

Kəşfiyyat Nazirliyinin rəsmiləri bu kontekstdə "idrak müharibəsi" ifadəsini İsrail və ABŞ-ın hazırkı siyasi sistemi zəiflətmək üçün İran ictimaiyyətində inamsızlıq və ümidsizliyi gücləndirməyə yönəlmiş psixoloji əməliyyatları olduğunu iddia etdiklərini təsvir etmək üçün istifadə edirlər. Tehran separatçı qrupların hələ də İran torpaqlarında fəaliyyət göstərən İsrail şəbəkəsinin bir hissəsi olduğuna inanır.

Tehran hazırda bütün diqqətini İsraillə potensial olaraq genişmiqyaslı müharibənin bərpasına hazırlaşmağa yönəldib, rəsmiləri mütəmadi olaraq yeni əməliyyatın mümkünlüyü barədə danışırlar. Bu şəraitdə İslam Respublikası çox güman ki, yaxın gələcəkdə sərhəddə təhlükəsizlik dəliklərini bağlamağa çalışacaq. "Amwaj Media"nın məlumatına görə, İran rəhbərliyi sərhədyanı ərazilərdə fəaliyyət göstərən separatçı yaraqlıların qarşısını almaq üçün İraq, İraq Kürdüstanı muxtar regionunun hakimiyyət orqanları və Pakistanla diplomatik əlaqələri gücləndirə bilər.

İran parlamentinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin (Məclisin) üzvləri artıq hökumətə müraciət edərək təkcə ölkənin müdafiə qabiliyyətinin artırılması üçün deyil, həm də şimal-şərq və cənub-şərqdə sərhəd təhlükəsizliyinin gücləndirilməsi üçün daha çox vəsait ayrılması xahişi ilə müraciət ediblər. Amerika Müharibənin Öyrənilməsi İnstitutu (ISW) bunu separatçı qrupların hücumlarının sayının artması ilə əlaqələndirir.

Rusiya Strategiya və Texnologiyaların Təhlili Mərkəzinin baş elmi işçisi Yuri Lyamin NG-yə izah etdiyi kimi, hər epizodun öz nüansları olsa da, bəluc və kürd qruplarının İrana qarşı fəallığının artması hadisələrin tamamilə gözlənilən inkişafı idi. "Pakistanla həmsərhəd olan Sistan və Bəlucistan əyalətindən danışsaq, İslam İnqilabı Keşikçiləri Korpusu (İranda ən nüfuzlu hərbi-siyasi təşkilatdır. - NG) orada təhlükəsizliyi gücləndirmək üçün 2024-cü ilin sonu - 2025-ci ilin əvvəlində böyük əməliyyat keçirib və bu, Bəluc qruplaşmasının fəaliyyətini cilovlayıb. əvvəlki fəaliyyətini bərpa etmək cəhdi ilə sular".

Kürd qruplaşmalarına gəlincə, İran hakimiyyətinin məlumatına görə, 12 günlük müharibə zamanı İsrail xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən birləşmələrin köməyi ilə İraq Kürdüstanının sərhəd bölgələrindən bəzi İsrail pilotsuz təyyarələri buraxılıb, ekspert xatırladır. "Bu, həmin ərazidə qarşılıqlı eskalasiyaya səbəb oldu" deyə Lyamin qeyd edir. "Yəni, bir tərəfdən həmin ərazidə İran pilotsuz təyyarələri tərəfindən açıqlanmayan dəqiq zərbələr, digər tərəfdən isə kürd qruplarının sərhəddə İran patrullarına snayper hücumları olub".

**V.VƏLİYEV**

# "Təhsildə virtual məktəblər real məktəbləri əvəz edə bilər"

## *SOSİOLOQ ŞƏRH ETDİ*

**"Hər dövrün özünün tələb olunan sənət və peşələri olur ki, o zaman o istiqamətdə çoxsaylı işçi qüvvəsinin axınını biz görürük. Vaxtilə at arabası sürənlər, fayton sürənlər, yaxud at nalını döyənlər, gündəlik məişət əşyalarını primitiv, öz sexlərində hazırlayan dəmirçilər, dulusçular, bel və yaxud oraq istehsal edən və s. peşə sahibləri var idi. O dövrdə texnika, mexanika, avtomatlaşma inkişaf etmədiyindən, bu peşələr dəbdə idi". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Aydın Xan Əbilov deyib.**






Onun sözlərinə görə, XX əsrdə də qəribə peşələr var idi: "Lift idarəçiləri, küçə işıqlarını yandıranlar, kilsə zəngi çalanlar və s. Zamanla bu peşələr tarixə qarışdı. Azərbaycanda məscidlərdə azan səsləndirənlərdən tutmuş, hamamlarda işləyən bir çox peşələr artıq yoxdur. Müasir dövrdə də bir çox peşə artıq avtomatlaşmaya, robotlaşmaya, süni intellektə yer verir. Telefonçu qızlar, kassir, sürücü, mağaza satıcısı və s. bu kateqoriyaya aiddir. Yaxın gələcəkdə isə sürücülər, müəllimlər, repetitorlar, tərcüməçilər və digər sahələrdə çalışanlar da bu prosesdən kənarda qalmayacaq. Çünki süni intellekt proqramları artıq onların funksiyalarını yerinə yetirə bilir.

Məişət texnikası ustaları, ayaqqabı təmir edənlər artıq əvvəlki qədər tələbat görmür. İnsanlar xarab olan texnikanı və ya ayaqqabını təmir etdirməkdənsə, yenisi ilə əvəz edirlər. Gələcəkdə küçə süpürənlərdən tutmuş yaşlılığa qulluq edənlərə qədər, hətta bəzi proqram təminatı sahəsində çalışanlar da avtomatlaşdırma ilə əvəzlənəcək. Təhsil sistemi də buna uyğun dəyişməlidir. Çünki bir çox ixtisaslar artıq faydasız və gələcəksizdir. Təhsil müəssisələri innovativ sahələrə yönəlməlidir. Əks halda, bu sahələrdə oxuyanlar gələcəkdə iş tapa bilməyəcək və dövlət üçün sosial yükə çevriləcəklər. Süni intellekt artıq mətni mətnə, səsi mətinə çevirə bilir. Tərcümə proqramları insan tərcüməçiləri əvəz edir. Uşaqlara dərs deyən müəllimlərin yerini tətbiqlər və onlayn platformalar tutur. Yaxın gələcəkdə yaradıcı sahələrdə- kino, televiziya, musiqi və şou-biznesdə də süni intellektlə əvəzolunma prosesi sürətlənəcək. Kliplər, mahnılar, videolar artıq proqramlar tərəfindən hazırlanacaq.

Təmizlikçi, baxıcı, aşpaz və ofisiant kimi işçiləri robotlar əvəz edəcək. Hətta tibbdə də bəzi həkim və tibb bacılarını robotlar əvəz edə bilər. Təhsildə virtual məktəblər real məktəbləri əvəz edə bilər. Bio-nano texnologiyalar, beyin interfeysləri və digər sahələr yaxın illərdə kompüter və smartfon texnologiyalarını geridə qoya bilər. Bu isə bu sahədə işləyənlərin də öz aktuallığlarını itirməsi deməkdir. Son olaraq, bütün bu dəyişikliklər artıq yalnız futuristik ehtimal deyil, real həyatın bir hissəsinə çevrilir. Elektron müəllim, virtual dərs, süni intellektlə tədris-bunlar artıq gerçəkdir və yeni peşələri doğurmaqla köhnə peşələri sıradan çıxarır. Ya bu dəyişikliklərə uyğunlaşmaq lazımdır, ya da geridə qalmaq".

***Ziya Hikmətoğlu***

# Ana dili gününə...

***Avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Hər ilin bu günü həm də ölməz Cəlil Məmmədquluzadəni xatırladır. Ədibin felyetonlarının bir qismində öz ana dilində danışmağı ar bilən ziyalılar tənqid olunurdu. Təsadüfi deyil ki, Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalının ilk nömrəsində (Tiflis, 1906, 7 aprel) "Sizi deyib gəlmişəm" adlı felyetonunda ana dili məsələsinə toxunmuşdu: Məni gərək bağışlayasınız, ey mənim türk qardaşlarım ki, mən sizlə türkün açıq ana dili ilə danışıram. Mən onu bilirəm ki, türk dilində danışmaq eyibdir və şəxsin elminin azlığına dəlalət edir. Amma hərdənbir keçmiş günləri yad etmək lazımdır...***






Cəlil Məmmədquluzadənin əziz xatirəsini bu gün də minnətdarlıqla yad edir və onun ana dilimizlə bağlı bir neçə felyetonunu təqdim etməklə, müasir dövrümüzdə dilə xələl gətirənlərə onlardan heç bir fərqləri olmadığını çatdırmaq istəyirik.

***

## Ana dili

Tatarlar ana dilində yazdığı qəzetləri oxuyanda Qafqaz cavanlarının ana dili danışmaqları yada düşür.

Tatar qəzetlərinin biri İran barəsində söhbət açıb bir yerdə belə yazır: "Persiyada camaat şaxdan nedavolnudur", yəni istəyir desin ki, "İranda camaat şahdan narazıdır".

Yazıq bizim dilimiz: Qafqaz ədiblərimiz "ana" əvəzinə "madər" yazırlar. Tatar qəzetçilərimiz də "İranı" "Persiya" yazırlar.

Və bunların adını da qoyurlar "ana dili". Yazıq analarımız nə "madər" eşidiblər, nə də "Persiya". Bəli....

*Cırcırama*
***"Molla Nəsrəddin", 16 mart, 1908, №11***

***

## Ana dili

Hərdən mənim xəyalıma bir belə şey gəlir: Mən universitet, yəni darülfünundan təzə qurtarıb vətənimizə gələn günü şəhərimizin qazisi Axund Molla Səbzəli gəldi bizim evə mənim görüşümə. Evimizdə heç kəs yox idi, anamdan savayı. Bu övrət də çıxdı o biri otağa və qazi ilə biz başladıq söhbəti. Deməyinən yazıq anam da qapının dalında durub qulaq asırdı.

Qazi içəri girən kimi mən qabağa yeridim və dedim: salam məleyk. Cənab qazi mənə cavab verdi ay əssalamü əleyküm, ay xudahafiz, əhvali-şərif, ənasiri-lətif, maşaallah, maşaallah, Əxəvizadə, neçə müddətdi müntəziri-vucudi-zicudunuz və müştaqi-didarınız idim, inşaallah zati-alinizin məzacı-mübarəkləri salimdir.

Mən bir şey başa düşməyib dedim: da.

Cənab qazi bir qədər baxdı mənim üzümə və genə başladı: Əxəvizadə, təhsili-fünunuzu əncama yetiribsiniz, ya dübarə təkmili-nöqsan üçün darülelmə əvdət etməlisiniz?

Mən genə bir şey başa düşməyib dedim ki, cənab axund, yaxşı panimat eləmirəm ki, nə ərz edirsiniz.

Axund soruşdu: necə?

Mən dedim: çto?

Söhbətimiz elə bu cür qurtardı və axund başmaqlarını geyib çıxdı getdi. Anam girdi içəri və mənə dedi: balam mollaynan nə dil danışırdınız ki, mən heç başa düşmədim.

Dedim: ana, mollaynan biz ana dili danışırdıq.

Anam başını saldı aşağı və bir qədər fikrə gedib dedi: Yazıq ana dili!

*Hərdəmxəyal*
***"Molla Nəsrəddin", 27 yanvar, 1907, № 4***

***

## Abirin və kilab

Bir neçə gün bundan əvvəl türk qəzetlərinin birində oxudum ki, rus ədibi məşhur Krılov "Abirin və kilab" adında bir təmsil yazıb. Çünki mən rusca az-çox oxumuşam və məlumdur ki, Krılovun təmsillərini mübtədi məktəblərdə oxudurlar, çox təəccüb elədim ki, bu təmsildən mənim xəbərim yoxdur. Açdım Krılovun məcmuəsini və vərəqləyib, "Abirin və kilab" adında bir təmsil tapa bilmədim. Sonra öz-özümə ha fikirləşdim ki, görəsən, "Abirin və kilab" nə deməkdir?

Axırı ərəbi bilənlərin birisi məni başa saldı ki, "abirin"-yəni ərəbcə keçəndər, yolçular; "kilab"-yəni itlər.

Burada mən barmağımı dişlədim: "a kişi, bu təmsili biz rus dərsi oxuyan vaxt əvvəlinci il oxuyub əzbərləmişik".

İndi mən çox heyfslənirəm ki, ərəbcə savadım yoxdur; əgər olsaydı, ömrümdə bircə kəlmə türkcə nə oxuyardım, nə yazardım, nə tərcümə edərdim.

Mənim xəyalıma bir şey də gəlir: rusca oxuyanlara məlumdur ki, Krılov təmsillərini sadə rus dilində yazıb ki, rus milləti yaxşı başa düşsün. Əgər Krılov bilsəydi ki, türklər onun təmsillərini türk dilinə tərcümə edəndə yolçulara "abirin" və itlərə "kilab" adı qoyacaqlar, yəqin ki, Krılov da təmsillərini firəng, ya nemsə dilində yazardı. Heyf ki, mən də özgələr kimi ərab dilini dərin oxumamışam.

*Hop-hop.*
***"Molla Nəsrəddin", 25 avqust, 1906, № 21***

***

## Bizim "obrazovannılar"

Mənim bir rəfiqim var, özü də müsəlmandır, amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur: mən onu görəndə deyirəm:

- Haradan gəlirsən?

O mənə belə cavab verir:

- Ya xodilna poçtu. (Mən poçta getmişdim.red)

Deyirəm:

- Dünən niyə bizə gəlmədin?

Cavab verir:

- K nam prişli qosti.(Bizə qonaq gəlmişdi. red)

Deyirəm:

- Yaxşı, qonaqlar gedəndən sonra gələydin!

Cavab verir:

- Net, uje bılo pozdno. (Yox, çox gec idi. red)

Deyirəm:

- Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

- Postarayus, no slovo ne dayu. (Çalışaram. Amma söz vermirəm. red)

Deyirəm:

- Xudahafiz!

Cavab verir:

- Do svidaniya! (Görüşərik. red)

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!..

Axırı bir gün dostumdan soruşdum:

- Mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki, otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun? Nə səbəbə sən mənlə heç müsəlmanca danışmaq istəmirsən?

Yoldaşım mənə rus dilində belə cavab verdi:

- Sluşay, kak-to stıdno koqda obrazovannıy çelovek po tatarski qovorit!.. (yəni obrazovannının müsəlmanca danışmağı eyibdir!).

- Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!..

Deyirlər ki, həmin mənim rəfiqim rus şkolunda oxuyan vaxt bir gün anasına deyib:

- Ana! Pajaluysta, mənə bir şey svarit elə! (yəni bişir!).

Anası cavab verib:

- Bala, nə dedin?

Rəfiqim cavab verib:

- Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm: bir zad bişir.

- Bala, nə bişirim?

- Çort yeqo znayet!.. Yadımdan çıxıb... Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana... Bir cür adı var...

- Bala, küftə deyirsən?

- Hə...hə... qofta, qofta!

**"Molla Nəsrəddin", 14 aprel, 1906, №2**

***Mətanət Məmmədova***



**Yusif Quliyev**

# Dəb, yoxsa dəyərlərin məhvi?

***Yay fəsli gələr-gəlməz şəhər küçələrində, park və ictimai yerlərdə bir mənzərə diqqət çəkir: gənc qızların geyim tərzi artıq yalnız dəb deyil, cəmiyyətin mənəvi simasını əks etdirən bir güzgüyə çevrilir. Topinq, qarın nahiyəsinin açıq qalması, bədən xətlərinin sərgilənməsi... Bu, sadəcə geyim tərzi sayıla bilərmi? Yoxsa daha dərin bir problemin milli-mənəvi dəyərlərdən uzaqlaşmanın işarəsidir?***

Əlbəttə, hər kəsin öz geyim seçimi var və bu, şəxsi azadlıq məsələsidir. Amma bu azadlıq cəmiyyətin əxlaqi və mədəni mühitinə zidd düşməməlidir. Biz Şərq sivilizasiyasının, İslam mədəniyyətinin bir parçasıyıq. Min illərlə formalaşmış mənəviyyat, ailə tərbiyəsi, qadına olan hörmət, həyaya dəyər verən toplumda açıq-saçıq geyimin "müasirlik" kimi təqdim olunması artıq sadəcə bir zövq məsələsi deyil bu, bir kimlik məsələsidir.

Dəb keçicidir. Bu gün var, sabah yox. Amma dəyərlər millətlərin ruhudur. Əgər biz bu gün ailə tərbiyəsini, mənəvi normaları gözardı edərək "geyim sərbəstliyidir" deyə hər şeyi haqq qazandırırıqsa, sabah qızlarımıza necə örnək göstərəcəyik? Biz bu torpağın övladıyıq, tariximizin, ədəbiyyatımızın, adət-ənənəmizin daşıyıcısıyıq. Xurafatla deyil, sağlam təfəkkürlə, milli-mənəvi özünüdərk hissi ilə yaşamalıyıq.

Cəmiyyətin görünən tərəfi qadındır. Qadının özünü təqdim etmə forması təkcə onu yox, bütövlükdə ailəsini, mənsub olduğu cəmiyyəti, dəyərləri əks etdirir. Biz istəyirik ki, Azərbaycan gəncliyi həm savadlı, həm zövqlü, həm də mənəviyyatlı olsun. Amma mənəviyyatla zövqün ziddiyyət təşkil etdiyi yer yoxdur. Sadəcə, bəzi hallarda bu zövq xaricdən idxal edilir və "müasirlik" adı ilə mənəviyyatımızın altını oyur.

Biz Avropa ilə ayaqlaşa bilərik, amma öz kimliyimizi itirmədən. Biz dəbli ola bilərik, amma təmkinimizi, həya və hörmət sərhədlərini qoruyaraq. Bizim milli qadın obrazımız çılpaq bədənlə yox, zəngin mənəviyyatla, mədəniyyətlə, zəkayla ön plana çıxmalıdır.

Bəzən "Avropada da belə geyinirlər" arqumenti ilə açıq-saçıq geyimlərə haqq qazandırılır. Ancaq unuduruq ki, Avropa cəmiyyətləri öz dəyərləri üzərində qurulub və bu dəyərlər arasında məsuliyyət, sərhəd tanıma və ictimai normaya uyğun davranış ön plandadır. Məsələn, bir çox Avropa ölkəsində məktəblərdə və iş yerlərində müəyyən geyim qaydaları var. Hətta bəzi hallarda açıq geyimə məhdudiyyətlər tətbiq olunur. Onlar azadlığı məsuliyyətlə və ictimai uyğunluqla tarazlayırlar.

Üstəlik, Avropada azadlıq yalnız geyimlə deyil, düşüncə azadlığı, elmi bilik, mədəni yaradıcılıq və vətəndaş məsuliyyəti ilə ölçülür. Yəni azadlıq bədən nümayişi ilə yox, cəmiyyətə fayda verməklə dəyər qazanır. Biz də bu cür azadlığa can atmalı, xarici görünüşə deyil, daxili keyfiyyətlərə üstünlük verməliyik.

Müsəlman bir toplum olaraq isə biz yalnız adət-ənənəyə yox, eyni zamanda inancımıza da əsaslanırıq. İslamda geyim tərzi həm şəxsiyyətə, həm də cəmiyyətə hörmətin göstəricisidir. Həya və təmizlik yalnız zahiri deyil, mənəvi bir haldır. Gözəl geyinmək, baxımlı olmaq İslamda təşviq olunur lakin bu, təmtəraq və nümayiş məqsədi ilə deyil, nizam və ədəb çərçivəsində olmalıdır. Əgər seçim qarşısındayıqsa dəb, yoxsa dəyərlər o zaman tərəddüdsüz "dəyərlər" deməliyik. Çünki dəb keçəcək, dəyərlər isə bizi ayaqda saxlayacaq.

Bəlkə bir daha düşünək...

# Dünya qızıl ehtiyatlarını niyə ABŞ-da saxlayır?

***ABŞ qızıl ehtiyatlarının, o cümlədən xarici ölkələrin ehtiyatlarının saxlanması üzrə dünya lideri olaraq qalır. Bununla belə, ayrı-ayrı ölkələr öz qızıl ehtiyatlarını dövlətlərdən ixrac etmək üçün səy göstərirlər. Səbəblər Kazinform agentliyinin öz müxbirinin materialındadır. Dünya Qızıl Şurasının məlumatına görə, müxtəlif banklarda saxlanılan dünya qızıl külçələrinin ümumi həcmi 31 min ton qiymətləndirilir ki, bunun da 8133,5 tonu ABŞ-a məxsusdur ki, bu da dünya qızıl ehtiyatlarının 26,2%-ni təşkil edir.***





Dünyanın ən böyük və ən etibarlı qızıl anbarlarından bəziləri ABŞ-da yerləşir. Nyu-York Federal Ehtiyat Bankı təxminən 6700 ton qiymətli metal saxlayan dünyanın ən böyük qızıl anbarıdır. Anbarda 30-dan çox xarici ölkədən və beynəlxalq təşkilatlardan (məsələn, BVF) qızıl var. Federal Ehtiyat Sistemi ilə təmsil olunan ABŞ-ın özü qızılını demək olar ki, heç vaxt orada saxlamır. Bankın təhlükəsizlik səviyyəsi çox yüksəkdir, yerin 25 metr altında yerləşir və 90 ton ağırlığında polad qapı ilə bağlıdır. O, xüsusi bölmə və Federal Ehtiyat Sisteminin təhlükəsizlik sistemi tərəfindən qorunur.

Kentukkidəki Fort Knox (Fort Knox Bullion Depository) hərbi bazada yerləşir və dünyanın ən təhlükəsiz yerlərindən biri hesab olunur. Anbarda təxminən 4580 ton qızıl var ki, bu da ABŞ-ın bütün rəsmi qızıl ehtiyatlarının təxminən 50%-ni təşkil edir. Qızıl ABŞ Maliyyə Nazirliyinə məxsusdur. Qranit divarların qalınlığı 1,2 metrdir, giriş 22 ton ağırlığında qapı ilə qorunur. Təhlükəsizlik hərbçilər, videomüşahidə, sensorlar, hasarlar və yeraltı təhlükəsizlik sistemləri ilə təmin edilir. İctimai giriş qəti qadağandır. Kolorado ştatındakı Denver Sikkəxanasında federal kassa. ABŞ qızıl ehtiyatlarının bir hissəsini (təxminən 400 ton) saxlayır, həmçinin ümumi dövriyyə və kolleksiya əşyaları üçün sikkələr zərb edir. Obyekt ABŞ Maliyyə Nazirliyinə məxsusdur. Kiçik bir əlavə depozitar, West Point, Nyu-Yorkda Birləşmiş Ştatların Hərbi Akademiyasının yaxınlığında yerləşən West Point Bullion Depozitxanası ABŞ qızıl ehtiyatlarının 21%-ni və ya təxminən 1700 tonunu saxlayır. Əsasən sikkələmə funksiyalarını yerinə yetirən Filadelfiya, Pensilvaniya və San Fransisko, Kaliforniyadakı ABŞ sikkəxanalarında təxminən 1400 ton qızıl var. ABŞ-da ən böyük qızıl sahibləri Almaniya (təxminən 1500 ton), Hollandiya (600 ton), İtaliya (1000 ton), Türkiyə (200 ton), Avstriya (150 ton), həmçinin Meksika, Yaponiya, İsveçrə, Səudiyyə Ərəbistanı və digər ölkələrdir.

## Təhlükəsizlik və aşağı qiymət

Bir çox xarici ölkələrin qızıl ehtiyatlarını ABŞ-da saxlamasının bir sıra səbəbləri var. Birincisi, tarixi səbəblər var. İkinci Dünya Müharibəsindən sonra ABŞ iqtisadiyyatı ən güclü idi və qızılı ABŞ dollarına 1 unsiya = 35 dollar nisbətində sabitləşdirməyə əsaslanan Bretton Woods sisteminin yaradılması zamanı (1944-1971) ölkələr qızıl standartı çərçivəsində dollar mübadiləsində kütləvi şəkildə ABŞ-a qızıl gətirirdilər. Bu, Nyu-Yorkun Federal Ehtiyat Bankında qızılın saxlanmasının əsasını qoydu. Bundan əlavə, Avropa ölkələri ABŞ-dan iqtisadi yardım (Marşal Planı) alıb və qızıl da daxil olmaqla aktivlərini Amerika maliyyə sisteminə yerləşdirirdilər. Soyuq müharibə də müəyyən rol oynadı. İşğal və müharibə qorxusu Avropa ölkələrini (Almaniya, İtaliya, Fransa) qızılı SSRİ-dən qorunan daha təhlükəsiz yurisdiksiya kimi ABŞ-da yerləşdirməyə məcbur etdi.

İkincisi, Amerikanın maliyyə sisteminə və infrastrukturuna etibar. Nyu-York Fed-in təhlükəsizlik, logistika və mühasibat sistemləri bu saxlama anbarını bir meyar halına gətirir. Bundan əlavə, qızılın ABŞ-da saxlanması beynəlxalq maliyyə əməliyyatlarında iştirak etməyi asanlaşdırır. Nyu Yorkdakı anbarlar arasında qızılın daşınması onu bir ölkədən digərinə göndərməkdən daha asan idi. Əslində, bank işinin ixtirasına səbəb olan "hesablar arasında qızılın hərəkəti" idi.

Üçüncüsü, Amerika ilə geosiyasi ittifaq. ABŞ-da ehtiyatların saxlanması NATO müttəfiqinə güvən əlaməti və ya əsas qlobal pul sistemində strateji "mövcudluq" kimi qəbul edilə bilər. ABŞ-da qızıl təcili valyuta dəstəyi, kreditlər və ya danışıqlarda "qlobal aktiv" kimi istifadə edilə bilər.

Dördüncüsü, ABŞ etibarlı, sabit və neytral yurisdiksiya hesab olunur, baxmayaraq ki, bu inam son illərdə, xüsusən də 2016-cı ildən bəri tədricən azalıb.

Beşincisi, ABŞ-da qızılın saxlanmasının aşağı qiyməti. Xarici ölkələr qızıllarını Nyu York Fed-də saxlamaq üçün kiçik, lakin sabit bir haqq ödəyirlər. Saxlama haqqı ildə təxminən 1 bar (12,4 kq) üçün $1,75-2,50 təşkil edir. Beləliklə, 1000 ton qızıl (80,645 külçə) üçün ödəniş: ildə 140,000-200,000 dollar olacaq. Milyardlarla ölçülən qızılın həcmi baxımından saxlama qiyməti cüzidir. Müqayisə üçün: əgər bir ölkə qızılı 50 milyard dollara saxlayırsa və ildə 150 min dollar ödəyirsə, bu, dəyərin 0,0003%-ni təşkil edir ki, bu da praktiki olaraq simvolik məbləğdir.

ABŞ bundan pul qazanmır, dollar sisteminə inamı gücləndirmək üçün xidmət göstərirlər. Bu yumşaq güc alətidir: ABŞ-da nə qədər çox ölkə qızıl saxlayırsa, Amerika maliyyə arxitekturası ilə bir o qədər sıx bağlıdır.

## Qızıl ehtiyatlarının vətənə qaytarılması

Bununla belə, bəzi xarici ölkələrin qızıllarını ABŞ-dan çıxarmaq istəyi var ki, bu da bir sıra səbəblərlə bağlıdır:

- ABŞ-da siyasi qeyri-sabitliklə bağlı narahatlıqlar, xüsusən də Donald Trampın Federal Ehtiyat Sisteminin işinə müdaxiləsi kontekstində;
- Venesuela və ya Rusiyada olduğu kimi aktivlərin dondurulması təhlükəsi;
- pul suverenliyi üçün artan hərəkat - fiziki qızılı "evdə" saxlamaq.

Məsələn, Almaniya ABŞ-dan qızıl ehtiyatlarını qaytarmaq imkanını nəzərdən keçirir. Onilliklər ərzində Almaniyanın qızılının böyük hissəsi Nyu York və Parisdəki xarici anbarlarda saxlanılırdı. Lakin Tramp cavab tariflərinin tətbiqini elan etdikdən və ticarət müharibəsi başlatdıqdan sonra onun hərəkətlərini proqnozlaşdırmaq və vura biləcəyi zərəri qiymətləndirmək dünya ölkələri üçün son dərəcə çətinləşib. 2013-cü ildən Almaniya Mərkəzi Bankı artıq xaricdən əhəmiyyətli miqdarda qızıl çıxarmaq üçün əməliyyata başlayıb. 2020-ci ilə qədər mərkəzi bank Nyu-York FED-dən Frankfurta təxminən 300 ton, Parisdən isə 374 ton qızıl nəql etmişdi. Berlin hazırda daha 1200 ton qızılın vətənə qaytarılması üzərində işləyir.

ABŞ-da qızıl ehtiyatlarının 43%-nə sahib olan İtaliya da analoji qərar qəbul edib. Bir sıra ölkələr son beş il ərzində (2019-2024) qızıllarını ABŞ da daxil olmaqla xaricdəki anbarlardan çıxarıblar. Polşa 2019-cu ildə ABŞ və Böyük Britaniyadan 100 tona yaxın qızıl nəql edib. Hindistan 2024-cü ilin may ayında London və Nyu York da daxil olmaqla, xaricdəki anbarlardan təxminən 100 ton qızılı geri qaytardı. Bu, sanksiyalar və ya mümkün aktivlərin dondurulması ilə bağlı narahatlıqlarla bağlı idi. Rumıniya 2019-2021-ci illər arasında təxminən 60 ton geri qaytarıb. Hollandiya 2019-cu ildə Nyu York FED-dən təxminən 122,5 ton qızıl alıb. Avstriya 2015-ci ildə Böyük Britaniya və ABŞ-dan təxminən 140 ton qızılın vətənə qaytarıldığını elan edib. Ölkələrin qızıl evlərinə qayıtmaq istəyi ABŞ-dakı siyasi risklərlə bağlı narahatlıqlar, "pul suverenliyi" istəyi və dünyada geosiyasi gərginliyin artması ilə əlaqələndirilir. Mövcud vəziyyət onu göstərir ki, ABŞ-da qızılın saxlanmasına inam təzyiq altındadır və məsələ xarici ölkələrin gündəmində qalacaq.

***V.VƏLİYEV***

---



**MƏTANƏT**

# Səndən doğma bir dil varmı bu dünyada?...

***Göz açıram dünyaya mən: bura hara? Azərbaycan. Layla çalır başım üstə müqəddəs bir varlıq olan anam mənim, layla çalır ana dilim. Yuxularım yoğrulur bu şirin dildən. Bədənimə dolur bənzərsiz bir sevgi, istək ana dildə: " Laylay dedim yatasan sən, şirin yuxu tapasan sən..."***

Günlər keçir... Ana dilim hopmuş sözlər mənə duyğu, qanad verir. Böyüyürəm, ana dilim yavaş-yavaş öz dilimdə səslənir, bax: "A" deyirəm, sonra da ki, "N" deyirəm. Anam bir gün sevincindən şaşıb qalır: balam "ana" söyləyir ki! Sonra isə yavaş-yavaş danışıram, Azərbaycan deyirəm, ana dilim Azərbaycan dilində.

Aylar keçir... Ana dildən ilham alıb, qol-qanad açıram mən, böyüyürəm, oynayıram, uşaqları çağırıram ana dildə. Söhbətləşib, gəzişirik şirin dildə. Bir-birimizi başa düşür, hiss edirik ana dildə.

İllər keçir... Boya-başa çatmışam mən. Altı yaşlı bir fidana varmışam mən. Budur, bu gün bir Azərbaycan məktəblisi olmuşam mən. Yollanıram sevinclə mən, tələsla mən, ana dildə daha nələr öyrənməyə... Günlər keçir... Evdə anam, məktəbdə müəllim əllərimdən tutur mənim. Bax, bu nədir, bu gün mənə verdi müəllim? "Əlifba"dır. İlk hərfi öyrənirik. O, "A"-dır, ana dilim Azərbaycan, doğma Vətən Azərbaycan bu hərflə başlayır ki! Günlər keçir, aylar ötür... Ana dildə "A"-dan "Z"-yə "Əlifba"nın hərflərin öyrənirəm. Ana dildə nağıllar, hekayələr, rəvayətlər oxuyuram. Çoxlu şeir, nəğmələr də öyrənirəm. Azərbaycan-odlar yurdum, göz bəbəyim, ürək param söyləyirəm. Ana dildə "Əlifba"dan gör bir nələr öyrənirəm?

İllər ötür, ana dilim-doğma dilim, şirin dilim, bağlanıram bir qırılmaz tel ilə mən, sənə dilim. Çünki hər kəslə bu dildə dil tapıram. Ana, ata məhəbbətin mən bu dillə qazanıram. Dost tapıram ana dildə, ürək açıb, sirr verirəm ana dildə. Oxuyuram, sual verib, cavab alıb, elmləri əxz edirəm ana dildə, böyüyürəm şirin dildə.

Azərbaycan- ana dilim, indi varlığıma hakimsən. Sənlə yoğrulan bədənin sənlə ötən illərisən. Bu illərdə ana dilim-şirin dilim, gör, mənə nələr öyrətmisən?...Dərk edərək həyatı mən yetkinləşdiyim andan səndən qeyri özüm üçün heç bir həmdəm tanımıram. Anam mənim, Azərbaycan, doğma Vətən, Azərbaycan, şirin dilim, Azərbaycan. Sənlə qürur duyuram mən. Sənə bağlı olduğumçün səndən ayrı yaşamağı heç bir zaman sanmıram mən. Buna görə ana dilim, doğransam da dilim-dilim, başqa dilə dönən deyil. Şirin laylanla oxşayıb böyütdün axı bizləri sən. Bundan sonra haqqım nədir səndən qeyri bir dilə mən dönüb baxam. Yəni səndən şirin, səndən doğma bir dil varmı bu dünyada?...

# Paytaxt Bakı “Formula-1”-ə hazırlaşır

***Gələcəyə hesablanmış idman siyasəti ölkəmizdə sağlam nəsil və böyük idmançı ordusu formalaşdırıb. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Azərbaycanın inkişafı, möhtəşəm nailiyyətlər ölkəmizin beynəlxalq miqyaslı yarışlara, festivallara, qlobal forumlara və konfranslara ev sahibliyi etməsinə səbəb olub. Paytaxt Bakıda NATO Parlament Assambleyasının seminarı, ATƏT Parlament Assambleyasının illik sessiyası, IV Bakı Beynəlxalq Humanitar, Gənclər Siyasəti üzrə I Qlobal Forumu, ”Bakı Elm Festivalı-2014”, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu və onlarla belə mühüm əhəmiyyət kəsb edən tədbirlərin təşkil olunmasında Azərbaycanın qazandığı mövqeyi, ölkəmizin beynəlxalq çəkisi və yüksək imici səbəbdir.***

Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma müşahidə olunmuş və bu gün də belədir. Dünyanın idman arenalarında artıq özünə layiqli yer tutan Azərbaycan müxtəlif idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Bədii gimnastika, qılıncoynatma, taekvondo, güləş, boks, karate, avarçəkmə, FİFA U-17 Qadınlararası Dünya Çempionatı, ”Baku World Challenge” avtomobil yarışı və Olimpiya növlərinə daxil olan digər beynəlxalq idman tədbiri, o cümlədən, Dünya və Avropa çempionatlarının təşkili ölkəmizə böyük imic qazandırıb. Ölkəmiz tarixdə ilk dəfə təşkil olunan ”Bakı-2015” Avropa Oyunlarını layiqincə təşkil etməklə, tək özünün deyil, qitənin idman tarixinə möhürünü vurmuşdu.



### AZƏRBAYCANDA İDMAN İNFRASTRUKTURU

Keçirilən tədbirlər sırasında ölkəmizdə keçirilən və dünyanın diqqətini cəlb edən ən əhəmiyyətli idman tədbirlərindən biri olan ”Formula - 1” yarışmasıdır. Azərbaycanın idman tarixində yeni bir səhifə olan elit yarışmalar sırasında yer alan ”Formula-1” yarım əsrdən artıq tarixində yaddaqalan zamanını yaşayır. 2016-cı ildən başlayararaq, paytaxtımızda keçirilən ”Formula-1” yarışlarının yüksək səviyyədə keçirilməsi üçün ölkəmizdə hər cür şərait yaradılıb. Azərbaycan növbəti dəfə ”Formula - 1” yarışmasına ev sahibliyi edəcək.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, ”Baku Crystall Hall”, Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, ”Bakcell Arena”, Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, deməli olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda - paytaxt Bakıda irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunub.

### ”FORMULA-1” YARIŞI ÖLKƏMİZƏ BÖYÜK İQTİSADİ DİVİDENDLƏR GƏTİRİR”

”FORMULA-1” azarkeşləri arasında keçirilən sorğuya əsasən, respondentlərin 74 faizi Formula 1 Azərbaycan Qran-Prisinin davamlı keçirilməsinin tərəfdarıdır. Azarkeşlərin 73 faizi Bakı şəhər halqasının F-1 yarışının təşkili üçün möhtəşəm yer olduğunu, 74 faizi isə onun ötmə manevri üçün ideal imkan yaratdığını qeyd edib. Ümumilikdə respondentlərin 62 faizi Bakı yarışının Formula 1 təqvimində ən sevimli yarışlardan biri olduğunu vurğulayıb. Beynəlxalq tədbirlərin keçirilməsi mürəkkəb bir mexanizmə malik olduğundan, təşkilatçılıq, təhlükəsizlik və iqtisadi imkanların mövcudluğu da həlledici rola malikdir ki, ölkəmizdə bütün bu və ya digər tədbirlər yüksək səviyyədədir. Təbii ki, keçirilən bu və ya digər tədbirlər turistlərin ölkəmizə axınını daha da gücləndirib. Bakıda keçirilən ”Formula-1” Avropa Qran-Prisi yarışlarını dünyanın 200-yə yaxın ölkəsində 500 milyondan çox azarkeşin televiziya vasitəsilə izləməsi, təbii ki, ölkəmiz ətrafında olan münasibətləri formalaşdırır. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Formula-1 yarışının ölkəmiz üçün çox böyük faydası olduğunu bildirib: ”Birincisi, ”Formula-1” yarışını keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxt şəhərləri, ya da ki, böyük şəhərləridir. Onların arasında Bakı şəhərinin mövcudluğu bizim üçün böyük hadisədir.

İkincisi, ”Formula-1” yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir, necə ki, bütün başqa şəhərlərə”. Əlbəttə ki, ”Formula-1” üzrə dünya çempionatının tamaşaçı auditoriyası bütün qitələri əhatə edir. Amerika, Avropa, Avstraliya, Asiya və Afrika ölkələrinin televiziya kanallarında yarışlar müntəzəm yayımlanır. Beş yüz milyon televiziya tamaşaçısının Avropa Qran-Prisində ən güclü pilotlarının mübarizəsini izləməklə yanaşı, şəhərimizin gözəlliyi ilə tanış olur, müasirliklə qədimliyin simvollarını özündə birləşdirən Bakı haqqında geniş məlumat əldə edə bilirlər. ABŞ-ın, Böyük Britaniyanın, Kanadanın, Fransanın, İspaniyanın, Avstraliyanın, Braziliyanın, Portuqaliyanın, Almaniyanın, İtaliyanın, Cənubi Afrika Respublikasının, Rusiyanın, Yaponiyanın və Polşanın, Hindistanın məşhur televiziya kanalları Bakı Qran-Prisini yayımlamaqla yanaşı, paytaxtımıza həsr olunan reportaj və materiallar hazırlayırlar. Azərbaycanın beynəlxalq nüfuzlu yarışlara yüksək səviyyədə ev sahibliyi etməsi, qədim tarixi abidələrimiz diqqətdən kənarda qalmır.

### PERSPEKTİVLİ İDMANÇILAR NƏSLİ

Ölkəmizdə mötəbər idman yarışlarını keçirməsinin arxasında da, məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm idman qurğuları fəaliyyət göstərir. 2015-ci ildə istifadəyə verilən Bakı Olimpiya Stadionu 68 min tamaşaçı tutumuna malikdir. Bu nəhəng idman qurğusu müasir memarlıq üslubu, xüsusi gözəlliyi və funksional baxımdan, əlverişliliyi ilə seçilir. Beynəlxalq standartlara tam cavab verən stadionda müxtəlif funksiyalı tribunalar, qaçış zolağı və digər infrastruktur yaradılıb. Əsas və köməkçi stadionlardan, həmçinin, mexaniki binadan ibarət olan stadionda əlil tamaşaçılar, VVIP, VIP, CIP və media bölmələri mövcuddur. Bakı Tennis Akademiyası da Azərbaycanda bu tipdə inşa edilmiş ilk idman qurğusudur. İlin bütün fəsillərində yerli və beynəlxalq yarış və məşqlərin keçirilməsi üçün müasir tələblərə cavab verən istilik və havalandırma sistemi quraşdırılıb. Bundan başqa 3 min tamaşaçı tutan mərkəzi universal stadion inşa olunub. Stadionda tennislə yanaşı, voleybol, mini-futbol, basketbol, həndbol, çimərlik voleybolu, güləş, boks və idmanın digər növləri üzrə ən mötəbər çempionatlar və turnirlər keçirmək mümkündür.

Bu və ya digər idman qurğularının paytaxtımızda mövcudluğu yarışların möhtəşəm keçirilməsinə əsas verir. İdman qurğuları ilə yanaşı, ölkəmizin idman sahəsində qazandıqları nəticələr də, çox vacib amillər sırasındadır. Sevindirici haldır ki, idmançılarımız həmişə onlara göstərilən etimadı doğrultdublar. Bu kimi tarixi nailiyyətlər gənclərimizin idmana maraq və həvəsini daha da artırdı. Azərbaycana 56 medal qazandıran Birinci Avropa Oyunları, bir daha təsdiqlədi ki, ölkəmizdə perspektivli, güclü idmançılar nəsli yetişməkdədir. Azərbaycanda idman və Olimpiya hərəkatının inkişafında da böyük canlanma var. Bütün bunlar Azərbaycanda həyata keçirilən idman siyasəti, həmçinin, idmanın inkişafına dövlət tərəfindən göstərilən diqqət və qayğının məntiqi nəticəsidir.

***Zümrüd BAYRAMOVA***

# Həlak olan sakinlərin xatirəsi əbədiləşdirilir

## Dövlət başçısı "Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb

Azərbaycan 44 günlük Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apardı və tarixi ədalət bərpa olundu. Təcavüzkar ermənilərin çirkin siyasətləri iflasa uğradı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə Azərbaycan QALİB oldu. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. 44 günlük müharibə dövründə erməni vandallığının, terrorunun acılarını da yaşadıq. Vətən müharibəsi dövründə dinc insanlara, mülki əhaliyə qarşı etdikləri əməllər, işğaldan azad olan torpaqlarımızı tərk edərkən törətdikləri yanğınlar erməninin faşist ideologiyasının təzahürüdür. Ermənistanın ötən əsrin 90-cı illərində olduğu kimi, Vətən müharibəsində də törətdikləri terrorçuluq dünyanın nüfuzlu nəşrlərində və sosial şəbəkələrdə yer aldı. Ermənistanın beynəlxalq konvensiyalara zidd topladığı silahlarla Gəncə, Tərtər, Mingəçevir kimi yerlərdə də mülki əhalinin kompakt yaşadığı ərazilərdə raket zərbələri endirməsi, Ermənistan hökumətinin təcavüzkar, terrorçu simasını bir daha ortaya qoymuş oldu. Döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğrayan Ermənistanın cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə aldı.

Bu gün terrordan əziyyət çəkən Gəncə şəhərində Memorial Kompleks yaradılır. Azərbaycan Prezidenti İlham Əliyev "Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhərində və digər yaşayış məntəqələrində həlak olan sakinlərin xatirəsinin əbədiləşdirilməsi və müharibə reallıqlarının əks etdirilməsi məqsədilə Gəncə şəhərində inşa olunan Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkilinə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 10,5 milyon (on milyon beş yüz min) manat vəsait ayrılıb. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin edəcək.

### TÖRƏDİLMİŞ FACİƏNİ İŞIQLANDIRACAQ ABİDƏ

44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsinə inşa edilən Gəncə Memorial Kompleksi Ermənistanın hərbi cinayətləri nəticəsində həyatını itirmiş Gəncə sakinlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində dövlət başçısı tərəfindən verilən tapşırıqlara əsasən, ərazidə ziyan çəkmiş binaların konservasiyası nəzərə alınmaqla layihələndirilib. Təməli 30 yanvar 2022-ci il tarixində Prezident İlham Əliyev tərəfindən qoyulan Gəncə Memorial Kompleksinin konsepsiyası Böyük Britaniyanın nüfuzlu "Chapman Taylor" şirkəti, tikinti layihəsi isə "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanıb.

Gəncə Memorial Kompleksi unikal memarlıq üslubunu özündə əks etdirən muzey binasından, estetik cəhətdən gözəl və funksional landşaft həllərindən ibarətdir. Memorial abidə 12 metr dərinliyə qədər enməsi nəzərdə tutulmuş spiralvari formada, hadisənin dəhşətlərini əks etdirən bədii obrazda və minimalizm üslubunda layihələndirilib. Muzey kompleksinin spiralvari formasının müşahidəsi üçün xüsusi sahələr planlaşdırılıb. Kompleks ərazisində yerləşən muzey binası gələn qonaqların ətraflı məlumatlandırılmasına xidmət göstərəcək, törədilmiş faciənin işıqlandırılmasında xüsusi rol oynayacaq.

Raket zərbələri nəticəsində dağıdılmış yaşayış binalarının qalıqlarının və izlərinin saxlanılacağı hissə isə açıq hava altında kompleksin davamı kimi nəzərdə tutulub. Burada şəhərin zərər dəymiş hissəsinin abadlaşdırılması və əhalinin istirahəti üçün geniş parkın yaradılması da planlaşdırılır.



Ərazidə həmçinin, 3 ədəd giriş tağları, 1 ədəd fəvvarə, mühəndis qurğuları olan 1 ədəd qazanxana, 1 ədəd transformator yarımstansiyası, 1 ədəd yeraltı nasosxana, 2 ədəd yeraltı içməli və yanğın əleyhinə su çənlərinin inşası nəzərdə tutulub.

Kompleksin ərazisində yeni layihələndirilən bina və qurğuların tikinti sahəsi 3 140.2 m?, bütün yerüstü mərtəbələrinin sahəsi 3 542.2 m?, konservasiya olunan binaların sahəsi isə 2 965.9 m? təşkil edir. Ərazidə yerləşən mövcud abidə 18.2 m? tikinti sahəsini əhatə edir.




Xatırladaq ki, 44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə 5 dəfə ayrı-ayrı zamanlarda, daha dəqiq 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində raket zərbələri endirilib. Onlardan ən dəhşətliləri 11 və 17 oktyabr tarixlərində baş verib. Əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb.

Gəncə şəhərinə atılmış raket zərbələri nəticəsində 6-sı uşaq və yeniyetmə olmaqla, ümumilikdə 26 nəfər həlak olub, 29-u uşaq olmaqla, ümumilikdə 142 insan isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

### HUMANİTAR ATƏŞKƏSİN KOBUD ŞƏKİLDƏ POZULMASI

Yaşadığımız yüzillik bəşər sivilizasiyasının yüksək nöqtəsi olaraq qəbul edilir və ağılın, idrakın sivil nöqtəyə yüksəldiyi zamanda insana sui-qəsdin edilməsi, düşünülmüş terrorun törədilməsi əlbəttə ki, qəbuledilən deyil. Terrorizm siyasi, dini, ideoloji və iqtisadi məqsədlərə çatmaq üçün qeyri-qanuni əməllərin, zorakılığın, gücün, hədənin tətbiq olunmasıdır. Müasir dünyanın toqquşduğu əsas və təhlükəli problemlərdən olan terrorizm daha çox siyasi, etnik, dini və s. zəminində yaranır. Əlbəttə ki, bu siyasi, iqtisadi və mənəvi ziyanla nəticələnir və hər bir dövlət, hər bir insan bunun qurbanına çevrilə bilər.

Təbii ki, real həyatda terror aktlarından daha çox günahsız insanlar, dövlət adamları ziyan çəkir və siyasi, etnik, dini və s. zəmində yaranan terrorların şahidi oluruq. Azərbaycan xalqı ermənilər tərəfindən tarixi dövrlərdə soyqırıma, terrorlara məruz qalmışdır. Ermənilərin Azərbaycan torpaqlarında törətdiklər terrorçuluq, işğalçılıq, soyqırımı bunu təsdiqləyir. Tarixə diqqət etsək görərik ki, iki yüz ilə yaxın bir dövrdə təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı yeridilən soyqırımı siyasətinin acı nəticələrini yaşamışıq.

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də 2020-ci ilin oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi Ermənistan kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da humanitar atəşkəs razılaşmasını da kobudcasına pozan Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni bir neçə dəfə "Elbrus" ballistik raketlərlə bombaladılar. Oktyabrın 17-də gecə saatlarında Gəncəyə edilən növbəti qəddar hücum nəticəsində 13 mülki şəxs, o cümlədən 2 uşaq həyatını itirdi, 45-dən çox insan ağır yaralandı. Dinc əhaliyə qarşı törədilən bu amansızlıqlar müharibə cinayətidir.

### SARSILMAZ DÖZÜM, MƏRDLİK VƏ İGİDLİK RƏMZİ

"Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər. Niyyət sadə və eyni zamanda, dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq. Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil. Gəncə - qədim dövlətçiliyimizin beşiyidir. Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir! Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir. Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!" Bu fikirlər 17 oktyabr 2020-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "Instagram" səhifəsində yer almışdır.

Gecə radələrində düşmənin törətdiyi bu vandal aktının cavabı isə dərhal verildi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciət etdi. Dövlətimizin başçısı müraciətində düşmənə döyüş meydanında layiqli cavab verdiyimizi vurğuladı və Füzuli şəhərinin, rayonun bir sıra kəndlərinin işğaldan azad olunduğunu elan etdi. Bu, Ermənistana, onun rəhbərliyinin törətdiyi cinayətlərə ən tutarlı cavab oldu. Ardınca isə Azərbaycan Respublikası Müdafiə Nazirliyi döyüş meydanında düşmənin çoxlu sayda canlı qüvvəsinin və hərbi texnikalarının məhv edilməsi anlarını əks etdirən videogörüntüləri yaydı. Bu görüntülər də Gəncə terroru qurbanlarının qanının yerdə qalmadığını bir daha əyani şəkildə göstərmiş oldu. Gəncədə törədilən terror günü Füzulinin işğaldan azad edilməsi xəbərini xalqımız aldı.

### FAŞİST İDEOLOGİYASI VƏ TÖRƏDİLƏN CİNAYƏTLƏR

Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilatı yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı apardıqları terrorçuluğun törətdiyi əməllərin qanlı izləri bizlərə yaxşı tanışdır. Ermənistanın insan tələfatına nail olmaq məqsədi həyata keçirdiyi terror aktları nəticəsində minlərlə günahsız insan həlak olmuşdur. Tarix boyu özgə torpaqlarına göz dikən və terrorçu əməlləri ilə qınağa çevrilən ermənilər günahsız insanların ölümünə səbəb olublar. Mülki əhalinin, xüsusilə qadınların və uşaqların, ahılların Ermənistan hərbi qüvvələrinin hədəfinə çevrilməsi onların faşist simasının təzahürüdür, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində, insan hüquqları kobudcasına pozulub, etnik təmizləmə siyasəti və terror aktları günahsız azərbaycanlının həyatına son qoyulub.

Terrorları törədən Ermənistanın son illərdə və 44 günlük Vətən müharibəsi dövründə törətdikləri vəhşi əməlləri faşist ideologiyasının sahibi olmalarının təsdiqidir. İnsan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərə məhəl qoymayan Ermənistan müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının, BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının və digər sənədlərin müddəalarını kobud şəkildə pozmaqda davam edib.

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı nəticəsində xalqımız misli görünməmiş faciələlər yaşamışdır. 1918-ci ildə Bakıda və Azərbaycanın digər bölgələrində ermənilərin törətdikləri qırğın Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan xalqının dinc həyatına ağır zərbələr vurmuşdur. Belə ki, ermənilərin azərbaycanlılara qarşı həyata keçirdikləri aramsız soyqırım və deportasiya siyasəti Azərbaycan xalqının yer üzündən tam silmək kimi iyrənc niyyətlərini gösətərmiş olur. Mart hadisələri - Şamaxıda, Qubada, Muğanda, Zəngəzur qəzasında, Qarabağda, İrəvan quberniyasında və ölkənin digər ərazilərində azərbaycanlıların amansızlıqla qətlə yetirildiyini, şəhər və kəndləri talan edilərək dağıdıldığını sübut edir. 1992-ci ilin Xocalı soyqırımı ilə ermənilər Xocalının yer üzündən silinməsini və məhv olmasını reallaşdırdılar. Erməni terrorçularından yayınıb meşələrə və dağlara qaçan insanların çoxu soyuqdan və şaxtadan məhv oldular. Xocalı şəhəri isə yer üzündən silindi. 1992-ci ilin aprel ayının 8-də baş verən Ağdaban soyqırımı tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri kimi yazıldı. Tariximizdə belə hadisələr kifayət qədərdir.

Ermənistanın 30 ilə yaxın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə baxmayaraq, Ali Baş Komandanın siyasi iradəsi, dövlətimizin gücü, rəşadətli ordumuzun dönməzliyi həsrətlə yolumuzu gözləyən tarixi torpaqlarımıza yol açdı.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İqtisadi dividendlər, mədəni turizm və kazino modeli

***Azərbaycan son illərdə turizm sahəsində mühüm irəliləyişlər əldə edib. Şərqin zəngin mədəniyyəti, unikal mətbəxi, qədim tarixi abidələri və qonaqpərvərliyi ilə ölkəmiz artıq on minlərlə turisti cəlb edən əsas regional istiqamətlərdən birinə çevrilməkdədir. Gürcüstan, Belarus, Türkiyə və BƏƏ kimi ölkələrin təcrübəsi göstərir ki, kazinolar xarici turistləri cəlb etmək üçün əlavə cazibə nöqtəsi olmaqla yanaşı, illik milyonlarla valyuta axınının ölkədə qalmasına da şərait yaradır. Əgər bu gün Azərbaycanda turistlərə yönəlmiş, dövlət nəzarətində fəaliyyət göstərən kazinolar fəaliyyətə başlasa, regionlarımızda həm infrastruktur inkişaf edər, həm də dövlət büdcəsinə yüz milyonlarla manat əlavə daxilolmalar təmin olunar.***



## Xaricə axan milyonlar ölkədə qala bilər

Hal-hazırda minlərlə azərbaycanlı istirahət və əyləncə məqsədilə qonşu ölkələrdəki kazinolara üz tutur. Bu, həm kapital axınına, həm də daxili turizm imkanlarının zəifləməsinə səbəb olur. Halbuki Azərbaycanda dövlət nəzarəti altında fəaliyyət göstərən kazino sənayesinin yaradılması milyonlarla manat vəsaitin ölkədə qalmasına, yerli iqtisadiyyatın canlanmasına xidmət edə bilər.

















## Kazinolar turizmin yeni mədəniyyət qapısı ola bilər

Kazinolar sadəcə qumar məkanları deyil. Onlar ətrafında formalaşan infrastrukturla otellər, restoranlar, sərgilər və əyləncə mərkəzləri ilə turizmin digər sahələrini də öz orbitinə alır. Ən əsası, bu məkanlar Azərbaycana gələn turistlər üçün milli mətbəximizin, qədim ənənələrimizin, xalçaçılıqdan musiqiyə qədər zəngin mədəniyyətimizin tanıdılması üçün unikal platformaya çevrilə bilər.

Nəzərə alsaq ki, kazinoya gələn turistlər otellərdən istifadə edəcək və əyləncələrlə yanaşı fəaliyyət göstərən restoranlarda milli mətbəximizlə, qədim mədəniyyətimizlə tanış olacaqlar. Mədəni gecələrdə muğam ifaları, xalq rəqsləri, sənətkarlıq sərgiləri və xalq oyunları turistlərə təqdim olunacaq. Beləliklə, kazinoya gələn əcnəbi turist təkcə əylənməz, eyni zamanda Azərbaycanı yaxından öyrənib və sevə biləcək.

## Minlərlə yeni iş yeri və regionların inkişafı

Yeni kazinoların fəaliyyəti təkcə paytaxtda deyil, regionlarda da minlərlə iş yeri yaradacaq. Otel işçiləri, turizm bələdçiləri, kulinarlar, marketoloqlar, təhlükəsizlik əməkdaşları bu strukturun vacib tərkib hissəsinə çevriləcək. Regionlardakı məşğulluq səviyyəsinin artması sosial rifaha da töhfə verəcək.

## Dövlət büdcəsinə əlavə gəlir: real rəqəmlərlə

Belarus, Gürcüstan, İtaliya və Böyük Britaniya kimi ölkələrin təcrübəsi göstərir ki, kazinolar qanuni çərçivədə fəaliyyət göstərdikdə dövlət büdcəsinə milyardlarla gəlir gətirə bilər. Azərbaycanda da eyni model qurulsa, illik on milyonlarla manat əlavə vəsait sosial layihələrə, infrastruktur layihələrinə və təhsil sahəsinə yönəldilə bilər.

## Mənəvi dəyərlərin qorunması: beynəlxalq təcrübə

Ən mühüm məsələ bu sahədə ictimai sabitliyin və milli-mənəvi dəyərlərin qorunmasıdır. Bunun üçün bir sıra dünya ölkələrində uğurla tətbiq olunan modellərdən istifadə oluna bilər:

**1. Yerli vətəndaşlara məhdudiyyət**

Şimali Kipr Türk Cümhuriyyəti kazinoları əsasən xarici turistlər üçün nəzərdə tutur. Yerli vətəndaşların girişinə hüquqi məhdudiyyət qoyulub. Belarusda kazinoya giriş üçün yerli vətəndaşlara fərdi icazə tələb olunur. Bu qayda onların sosial müdafiəsi və ailə institutunun qorunması məqsədi daşıyır.

Azərbaycan üçün də bu model uyğundur: Kazinolara yalnız xarici vətəndaşların buraxılması, yerli vətəndaşlar üçün isə ya qadağa, ya da ciddi giriş rüsumu tətbiqi təklif oluna bilər.

**2. Xüsusi iqtisadi zonalar və lokasiyalar**

Kazinolar yalnız turistik ərazilərdə məsələn, Quba, Qusar, Naxçıvan və ya Xəzəryanı kurort zonalarında yerləşdirilməli, şəhər və yaşayış mərkəzlərindən kənarda fəaliyyət göstərməlidir.

**3. Maarifləndirmə və sosial fondlar**

Kazino gəlirlərindən müəyyən faiz ayrılaraq qumar asılılığı ilə mübarizə, ictimai maarifləndirmə, gənclərin mədəni layihələrə cəlb edilməsi və ailə dəyərlərinin təbliği üçün xüsusi fondlar təsis edilməlidir.

**4. Giriş nəzarəti və şəxsiyyət yoxlaması**

Bütün kazinolarda müəyyən yaş həddindən yuxarı şəxslərin şəxsiyyət vəsiqəsi ilə girişinə icazə verilməli, real vaxtlı müşahidə və audit sistemləri ilə fəaliyyəti izlənilməlidir.

## Balanslı yanaşma mümkündür

Azərbaycanın gələcəyi üçün iqtisadi sabitlik nə qədər vacibdirsə, milli və mənəvi dəyərlərin qorunması da o qədər həyati əhəmiyyət daşıyır. Dövlətin düzgün tənzimləmə siyasəti, ictimai nəzarət və dünya təcrübəsinə əsaslanan mexanizmlərlə kazino sənayesi həm iqtisadi, həm də mədəni inkişafın bir hissəsinə çevrilə bilər. Nəzərdə saxlamaq lazımdır ki, bu sadəcə oyun deyil bu, həm iqtisadi addım, həm də mədəni vizit kartımız ola bilər.

***”Səs” Analitik Qrupu***

# Niyə Müsavat Trol Sadıqlıya, AXCP isə Qabil Məmmədova yiyə durmur?



Azərbaycan iqtisadi, siyasi, hərbi sahələrdə gücləndikcə bəzi xarici qaranlıq dairələrində narahatlıqları artır. Çünki onlar dünya siyasətinin müəyyənləşməsində yeni güc mərkəzinin masada olmasını arzulamırlar. Hansı ki, yeni qüdrətli dövlət dünya siyasət aləmində daha ədalətli və xeyir davranış nümayiş etdirir. Məhz bu səbəbdən dünya siyasətində, hərb meydanında, iqtisadi sferada parlayan Azərbaycanı kölgədə saxlamaq üçün hər cür iyrənc vasitə və üsullardan, hətta sapı özümüzdən olan baltalardan istifadə edirlər. Təəssüflər olsun ki, sonuncular bu ölkənin imkanlarından, yaradılan yüksək iqtisadi, sosial və digər imkanlarından ən çox bəhrələnən, yararlanan tərəflər olublar. Lakin qazandıqları, əldə etdikləri ilə qane olmayaraq müxtəlif qanunsuz əməllərlə varidartlarını artırmağa çalışıblar. Hətta hazırda xaricdə gizlənib Azərbaycan dövlətinin atributlarına qarşı təhqirlər yağdıranlar, ittihamlar irəli sürənlər bəzi insanları sadəlövhlüyündən istifadə edərək onların pul vəsaitlərini ələ keçiriblər. Təbii ki, törədilən cinayətlər cəzasız qala bilməz. Həm də Azərbaycan hüquqi, azad dövlətdir. Kimsənin statsusuna, cəmiyyətdə tutduğu mövqeyinə görə cinayətdən azad edilməsi mümkünsüzdür. Belə hal baş versə, sensasiya olaraq qiymətləndirilər və ölkəmizin imicinə xələl gətirər. Yalnız məhkəmə istisna hallarda qərarını elan edərkən məhkəməsi keçirilən şəxsə qarşı qismən humanist davranış nümayiş etdirə bilər. Qanuna görə isə, cəzadan heç kim xilas ola bilməz. El məsəlində deyildiyi kimi, "qanun şahdır, şah qanun deyil".

## Cinayətkar cəzasız qala bilməz

Bəli, Azərbaycanda hər kəs qanun qaşısında cavabdehlik daşıyır. Bu baxımdan Azərbaycanda müxtəlif cinayətlər törətdiklərinə görə xaricə qaçanlara qarşı Azərbaycanın Baş Prokurorluğunun İstintaq İdarəsinin qaldırdığı cinayət işləri təbii prosedurdur. Bununla bağlı onların qeydiyyatda olduqları ünvanlara bildirişlər göndərib və istintaq idarəsinə gəlmələri qeyd olunub. Bir daha Azərbaycanın qanunlarına qarşı hörmətsizlik nümayiş etdirən xaricdə gizlənən antimilli ünsürlər Baş Prokurorluğun İstintaq İdarəsinin çağırışına əməl etməyiblər. Bu baxımdan da Baş Prokurorluğun İstintaq İdarəsi tərəfindən barələrində qiyabi icraat başlanaraq istintaqa çağırılan İmaməddin Əlimanov, Süleyman Süleymanlı, Elşad Məmmədov, Məhəmməd Mirzəli, Qabil Məmmədov, Orxan Ağayev, Qurban Məmmədov barəsində təqdimatlara baxılıb.

Baş Prokurorluğun təqdimatlarına Binəqədi rayon Məhkəməsində baxılıb, məhkəmə təqdimatları təmin edib. Onlar barəsində həbs qətimkan tədbirinin seçilməsi barədə qərar çıxarılıb. Artıq bəzi təqsirləndirilən şəxslərə qarşı Məhkəmə tərəfindən qiyabi hökm çıxarılıb. Belə ki, Azərbaycanın Cinayət Məcəlləsinin 24 maddəsi ilə təqsirləndirilən, hazırda xaricdə yaşayan Qabil Məmmədovun cinayət işi üzrə məhkəmənin yekun iclası keçirilib. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə qiyabi hökm oxunub. Hökmə əsasən, Qabil Məmmədova 16 il həbs verilib. Qeyd edək ki, Qabil Məmmədova qarşı Baş Prokurorluğunun İstintaq İdarəsində cinayət işi başlanıb.

Qeyd edək ki, iş üzrə toplanmış sübutların məcmusuna əsasən, ötən il iyulun 17-də Qabil Məmmədova Azərbaycan Cinayət Məcəlləsinin 178.2.2, 178.2.4, 182.2.1, 182.2.4, 214.2.1, 214.2.2, 214.2.3, 214-1, 214-2, 32.3, 34.2, 233, 32.3, 34.2, 315, 32.3, 34.2, 186.2.1, 32.3, 34.2, 186.2.2, 32.3, 34.2 və 127.2.1-ci maddələri ilə yenidən ittiham elan edilməsi haqqında qərar qəbul edilib, lakin o, Azərbaycanın hüdudlarından kənarda olduğundan ona ittiham elan etmək mümkün olmayıb.

## Antimilli ünsürlər yaşadıqları ölkələrin polis bölmələrinə çağırılırlar

Söz yox ki, İmaməddin Əlimanov, Süleyman Süleymanlı, Elşad Məmmədov, Məhəmməd Mirzəli, Orxan Ağayev, Qurban Məmmədov və digər xaricdəki antimilli ünsürlər də məhkəmənin qiyabi də olsa azadlıqdan məhrumetmə cəzasını alacaqlar. Qərarın icrası onların xaricdə gizlənmələri səbəbindən hələ ki, mümkün olmasa da, bir gün ağaları onlardan imtina edəcək və onlar Azərbaycanın ədliyyə orqanlarına təhvil veriləcəklər.

Görünən ondan ibarətdir ki, bəzi xarici qaranlıq dairlər, xüsusilə də Almaniya və Fransadakı Azərbaycana qarşı daim qərəzli mövqe sərgiləyən qüvvələr boyunlarında qatı cinayətkar bəslədiklərini anlamağa başlayıblar. Baxmayaraq ki, həmin cinayətkar ünsürlər uzun müddətdir ki, onların sifarişlərinin qulları olublar. Lakin artıq dünya düzənində yaşanan hüququn aliliyinə riayət olunması tələbləri onları da cəmiyyətlərin qərarlarına boyun əyməyə məcbur edir. Ona görə də, bəzi xaricdəki antimilli ünsürlər müvəqqəti yaşadıqları şəhərlərin polis bölmələrinə çağırılırlar. Polis bölməsində onlar ciddi şəkildə sorğusual edilir və yaşadıqları yerləri tərk etməmələri haqqında dillərindən yazılı iltizam alırlar. Bəzi xaricdəki söyüş müxalifətinin təmsilçiləri olan antimilli ünsürlərin Azərbaycanın tanınmış insanlarından, iş adamlarından şantaj yolu ilə pul almalarına dair sübut və dəlilləri araşdırmaq üçün Almaniya və Fransa prokurorluq orqanları cinayət işləri qaldırıb. Cinayət işlərində adları keçən ünsürlər istintaqa cəlb olunublar.

## Əli Kərimli və İsa Qəmbər narahatdırlar

Bu arada diqqətçəkən məqam ondan ibarətdir ki, xaricdəki antimilli ünsürlərin həbs olunmalarının daha real olduğunu anlayan Azərbaycandakı dağıdıcı müxalifətin məxluqları narahat olmağa başlayıblar. Xüsusi ilə də AXCP sədri Əli Kərimli, Müsavatın keçmiş və indiki başqanları İsa Qəmbər və Arif Hacılı xaricdəki ünsürlərin həbs olunmaları ilə bağlı ziddiyyətli fikirlər səsləndirməyə başlayıblar. Əli Kərimli xaricdəki şəriklləri haqqında həbs qərarının arzuolunan olmadığını bildirib. Qeyd edib ki, yaxşı olardı ki, onlar Azərbaycan gətirildikdən sonra məhkəmə prosesi keçirilsin. Müsavat və AXCP liderlərinin qeyr-ciddi, anormal fikirlər səsləndirmələri onu deməyə əsas verir ki, Əli Kərimli, İsa Qəmbər və digərləri xaricdəki ünsürlərin həbs olunaraq Azərbaycana gətirilməsindən ciddi təşviş keçirirlər. Çünki Bakıya gətiriləcək Trol Sadıqlı, Qabil Məmmədov və digərləri AXCP, Müsavat kimi dağıdıcı siyasi partiyalarla geniş əməkdaşlıq əlaqələrinə malik olduqlarını dilə gətirəcəklər. Həm də maliyyə yardımlarının bölüşdürülməsində Əli Kərimli və İsa Qəmbərlə müəyyən pay bölgüsünə malik olduqlarını bildirəcəklər. Nəzərə almaq lazımdır ki, özünü "siyasi mühacir" hesab edən "Azad söz" "YouTube" kanalının rəhbəri Tural Sadıqlı Müsavat partiyasının, "işğal olunan ərazilərdən bir qarış torpaq alınsa qulağımı kəsməsəm kişi deyiləm" deyən Qabil Məmmədov AXCP-nin fəal üzvləridir. Zaman-zaman onlar Müsavatı və AXCP-nin təbliğatçıları rolunda çıxış ediblər. Hətta A.Hacılı Avropaya səfəri zamanı Trol Sadıqlı ilə təkbətək görüşüb, müəyyən gizli söhbətlər aparmışdır. Bu görüş Müsavat Divanının üzvləri tərəfindən narazılıqla qarşılanmışdır. Çünki bu, o T.Sadıqlıdır ki, illər öncə Müsavat Partiyasının Divan üzvü Fərəc Kərimlinin həbsində fəal rol oynayıb. F. Kərimli vəkili vasitəsi ilə bildirmişdir ki, partiyadaşı T.Sadıqlının məlumatları əsasında o həbs olunub. Buna baxmayaq A.Hacılı T.Sadıqlı ilə əməkdaşlıq əlaqələrini davam etdirir. Çünki onun vasitəi ilə Avropa mərkəzləri ilə əlaqələr qurulur və maliyyə yardımları alınır. Eyni ilə Ə.Kərimli də Q.Məmmədovla geniş əlaqələrə malikdir. Bəzi hallarda Q.Məmmədova məlumatlar göndərir, o da öz növbəsində həmin dezinformasiya xarakterli məlumatları sosial şəbəkələrdə paylaşır. Əminliklə demək olar ki, çox yaxın vaxtlarda T.Sadıqlı, Q.Məmmədov və digərləri həbs olunaraq Azərbaycana gətiriləcək və beləliklə AXCP, Müsavat liderlərinin müəyyən qaranlıq iş fəaliyyətlərinin üstü açılacaq.

*İLHAM ƏLİYEV*



Elçin Bayramlı

# Sonun başlanğıcı

## Elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır

"Biz ətrafımızı o qədər dəyişmişik ki, indi orada mövcud olmaq üçün özümüzü kökündən dəyişməliyik" - Viner Norbert (ABŞ riyaziyyatçısı, "kibernetikanın atası")

Qlobal istiləşmə şəraitində Arktika və Antarktidakı, həmçinin Qrenlandiyadakı buzlaqların əriməsi sürətlənib. Artıq buz təbəqəsindəki əri̇mənin qarşısını almaq mümkün deyil. Son 20-30 ildə bu əri̇mə daha da sürətlənib və buz təbəqələri çox böyük ölçülərdə yoxa çıxır. Buzlu materikdə hər il nəhəng buz təbəqələri materikdən qoparaq okeana doğru irəliləyir və əriyir. Təxminən 10-15 il qabaq Arktikada qalın buz təbəqəsindən atom buzqıran gəmilərlə belə yaxınlaşmağın mümkün olmadığı yerlərə, hətta şimal qütbünə belə adi gəmi ilə rahatca gedib gəlmək olur. Son elmi məlumatlar əri̇mənin ehtimal olunandan 100 dəfə daha sürətlə getdiyini göstərdi. Hesablamalara görə, təkcə Qrenlandiyanın əriməsi dəniz səviyyəsini 7 metr qaldıracaq, bu özlüyündə böyük fəlakətdir, bunun üzərinə Arktika və Antarktidanın da əriməsini əlavə etsək, vəziyyəti təsəvvür etmək çətin olmaz. Antarktidada tarixdə ilk dəfə 20 dərəcədən yuxarı tempratur qeydə alınıb. Sibirdə tempratur 40 dərəcəyə çatıb. Son bir neçə min ildə bircə dərəcə belə istiləşməyən planetimizin orta tempraturu son 1 əsrdə 3 dərəcə artıb ki, bu da faktiki fəlakət siqnalıdır.

Dünən Sakit okeanın şimalında- Rusiyanın Kamçatka yarımadasında baş verən 8.8 bal gücündə zəlzələ və bunun nəticəsində yaranmış güclü sunami bütün okean boyu yerləşən ölkələrdə dağıntılara səbəb olub. Son günlərdə Türkiyədə və digər ölkələrdə törədilən meşə yanğınları isə qlobal ekosistemi məhv edir. Təbii fəlakətlərin sayı və amplitudası artıb. Daha açıq desək, bunlar nəhəng qlobal kataklizmlərin başlayacağını göstərən əlamətdir. Dağlarda buzlaqların əriməsi isə tezliklə qlobal içməli su böhranı yaradacaq və hətta su müharibələrinin baş verəcəyi ehtimal olunur. Ciddi qlobal ərzaq böhranı gözlənilir. Təbii resurslar tükənir. Konkret olaraq bu proses antropogen təsirlərin, yəni birbaşa insan fəaliyyətinin nəticəsidir. Baxmayaraq ki, iri sənaye oliqarxlarının oyuncaq "elmi" mərkəzləri diqqəti problemin əsas səbəbindən yayındırmaq üçün bəşəriyyətə nağıl danışırlar. Guya ki, bu vəziyyət Günəşdə gedən hansısa reaksiyalar, nə bilim, kosmosda baş verən hansısa proseslərin təsiri ilə imiş. Halbuki elmi faktlar və adi müşahidələr sübut edir ki, planetimiz qəsdən dağıdılır.

Burada yeganə təqsirkar insanların özləridir. Daha doğrusu bəşəriyyətin idarəedici qüvvələri. Kapitalizm sistemi planetdə bütün canlı aləmin axırına çıxmağa rəvac verir. Lazımsız istehsal həcmi, vəhşicəsinə istehlak çılğınlığı, lüzumsuz rəqabət mühiti və çoxlu sərvət əldə etmək həyasızlığı dünyanı məhvə aparır. Qısası, öz evimizi, yəni dünyamızı şüursuzcasına dağıtmaq, bütün canlı üçün biz insanlar əlimizdən gələn hər şeyi edirik. Ultrakomfort həyat arzusu, fasiləsiz istehlak xəstəliyi, dəb və özünü başqalarından üstün göstərmək sindromu dünyanın axırına çıxır. Bəzi nüfuzlu alimlərin fikrincə, artıq planetimizi, canlı aləmi xilas etmək, bu qorxunc prosesi dayandırmaq və hər şeyi geri qaytarmaq üçün son imkanlar da itirilib. Yəni, artıq demək olar ki gecdir...

2 il əvvəl ABŞ Konqresində və Ağ Evdə lobbiçi, CERN Laboratoriyasının "Gələcək Halqa Toqquşdurucusu" layihə qrupunun və E.Lourens adına Livermor Milli Laboratoriyasının Lazer Termonüvə Reaksiyaları Milli Kompleksinin istifadəçi qrupunun üzvü, ABŞ-ın dörd prezidentinin müşaviri olmuş Eqon Çokaian bütün dünya ictimaiyyətinə müraciət etdi. Nüfuzlu alim artıq qlobal kataklizmlərin başlandığını və dünyanın yaxın bir neçə il məhv ola biləcəyini bəyan etdi.

Digər alimlər də artıq planetimizdəki ekoloji proseslərin qarşısıalınmaz, geridönməz formaya keçdiyini etiraf ediblər. Yəni biz, necə deyərlər, "bir balaca" gecikmişik. Bir neçə il əvvəl BMT-də dünya dövlətlərinin nümayəndələri müzakirə apardılar ki, qlobal istləşmənin sürətini azaltmaq üçün istehsal və atmosferə tullantılarının həcmi azaldılsın.

Hətta maksimum tədbirlər belə ümumi orta temperaturun artımını 2 dərəcədən aşağı salmağa qadir deyil. Halbuki, dövlətlər minimum azalmanı belə qəbul etmək istəmirlər. Bunun üçün Kioto protokoluna baxmaq kifayətdir. İri sənaye dövlətləri protokola qoşulmamaqla göstərdilər ki, onlar planetimizin xilasında yox, özlərinin müvəqqəti nüfuz və üstünlüyündə maraqlıdırlar. Kasıb ölkələr isə deyirlər ki, biz də sizin kimi yaşamaq istəyirik, ona görə də sənayeni azalda bilmərik.

Misal üçün, ABŞ təkbaşına dünya ekologiyasının korlanmasında 40 faizlik paya malikdir. Halbuki onun əhalisi dünya əhalisinin cəmi 3 faizini təşkil edir. Çin və Hindistan deyirlər ki, biz hərəmiz milyard yarım əhalini təmin etməliyik, insanlarımızın varlı ölkələrdəki kimi yaşamaq haqqı var, ya hamı eyni yaşayacaq, ya da biz heç nəyi ixtisar edən deyilik, yəni zərərli sənaye sahələrini və onun tullantılarını azaltmayacağıq. Bax, dünyamız belə bir şüursuz vəziyyətdə dağılmağa doğru gedir. Bunun səbəbi, hələ də dünyamızda ədalətli və ağıllı insan cəmiyyəti qura bilməməyimizdədir. Nə qədər ki, insanlar sağlam təfəkkürə yiyələnə bilməyib, labüd bəşəri fəlakətdən sığortalanmaq mümkün olmayacaq. Artıq sonun başlanğıcındayıq...

# Yayda tez-tez rast gələnən xəstəliklər və onlardan qorunma yolları

ARAŞDIRMA



***Yay fəsli tətil, səyahət və istirahət dövrü olmaqla yanaşı, bir sıra sağlamlıq risklərini də özü ilə gətirir. İsti hava şəraiti, qida və su rejiminin dəyişməsi, gigiyenik qaydalara diqqətsizlik bəzi xəstəliklərin yay aylarında artmasına səbəb olur. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

## İstivurma (günvurma)

Səbəbi uzun müddət birbaşa gün şüaları altında qalmaqdır. Əlamətləri baş ağrısı, ürəkbulanma, halsızlıq, yüksək bədən temperaturu, huşun itməsidir.

Profilaktika üçün günün ən isti saatlarında (12:00-16:00) çöldə olmamaq, papaq, eynək, günqoruyucu kremdən istifadə etmək, bol maye qəbul etmək lazımdır.

## Qida zəhərlənməsi

Səbəbi itidə tez xarab olan qidalar - süd məhsulları, ət, dəniz məhsulları, bayat salatlardır. Əlamətləri qarın ağrısı, ishal, qusma, hərarət, susuzlaşmadır. Profilaktika üçün təzə və etibarlı mənbədən alınmış qidalardan





istifadə edin, yaxşı bişmiş yeməklərə üstünlük verin, soyuq zəncirə riayət edilməyən məhsullardan uzaq durun, əlləri yeməkdən əvvəl və sonra yaxşı yumaq.

## Bağırsaq infeksiyaları

Səbəbi natəmiz su, çiy meyvə-tərəvəzlər, gigiyena qaydalarına əməl olunmamasıdır. Əlamətləri ishal, qızdırma, qarın ağrısı, ümumi halsızlıqdır.

Profilaktika üçün su mənbəyinin təmizliyinə əmin olun, meyvə-tərəvəzləri bol su ilə yuyun, əl gigiyenasına ciddi diqqət edin.

## İnsektlərin yaydığı xəstəliklər (sancmalar, allergiya, yoluxucu xəstəliklər)

Səbəbi ağcaqanad, milçək, kənə kimi həşəratların çoxalmasıdır. Əlamətləri dəridə qaşınma, qızartı, qızdırma və bəzən infeksiyadır. Profilaktika üçün qapı və pəncərələrə tor taxmaq, antihəşərat spreyləri və dərilərə sürtülən qoruyucu vasitələrdən istifadə, təbiətdə istirahət zamanı uzun geyimlər geyinmək lazımdır.

## Göbələk infeksiyaları

Səbəbi tərləmə, nəm mühit, ictimai hovuz və çimərliklərdir. Əlamətləri əridə qızartı, qaşınma, qabarıqlıqdır. Profilaktika üçün Ayaqları və bədəni daim quru saxlamaq, ictimai hovuzlarda şəxsi dəsmal, terlik, sabundan istifadə, sintetik deyil, pambıq geyimlər geyinmək lazımdır.




## İstilik və susuzluğa bağlı halsızlıq

Səbəbi yüksək temperatur və az maye qəbuludur. Əlamətləri başgicəllənmə, təzyiqin düşməsi, zəiflik, diqqətin yayınmasıdır. Profilaktika üçün ərzində 2-2.5 litr su qəbul edin, qəhvə, qazlı və şəkərli içkilər əvəzinə təbii sərinləşdiricilərə üstünlük verin, ağır yeməklərdən uzaq durun.

Yay aylarında sağlam qalmaq üçün qida təhlükəsizliyi, gigiyena, sərinləmə üsulları və günəşdən qorunma tədbirləri əsas şərtlərdir. Sadə ehtiyat tədbirləri ilə həm sağlamlığınızı, həm də yay istirahətinizi qoruma mümkündür.

## Valideynlər üçün: Uşaqları yay xəstəliklərindən necə qoruyaq?

Yay aylarında uşaqlar açıq havada daha çox vaxt keçirir, sərin içkilər və dondurma kimi məhsullardan istifadə edir. Bu isə bəzi xəstəliklərə yol aça bilər:

## Ən çox rast gələnən hallar:

İshal və qusma: Bayat və ya çirkli su ilə təmasda olan qidalar səbəb olur.

Günvurma: Başıaçıq və uzun müddət günəş altında oynayan uşaqlarda daha tez-tez görülür.



## Tərləməyə bağlı göbələk infeksiyaları

*Nə etməli?*

Yeyəcəkləri qidaların təzə və təmiz olduğuna əmin olun.

Günün isti saatlarında çöldə oynamağı məhdudlaşdırın.

Papaq, açıq rəngli geyim və günəşdən qoruyucu krem istifadə edin.

Bol su və evdə hazırlanmış kompotlara üstünlük verin.

İctimai hovuzlardan istifadə zamanı şəxsi gigiyenaya diqqət edin.

## Hamilələr üçün: Yay aylarında sağlam və təhlükəsiz qalmaq

Hamiləlik dövründə yay istiləri bədəni daha da həssaslaşdırır. Susuzlaşma, təzyiqin düşməsi, günvurma və bəzi infeksiyalar bu dövrdə daha təhlükəli ola bilər.

Risklər:

- Susuzlaşma və halsızlıq
- Yüksək temperatur nəticəsində təzyiqin dəyişməsi
- Qida zəhərlənməsi
- Dəri səpgiləri və göbələk infeksiyaları

## Profilaktik tövsiyələr:

- Gün ərzində ən azı 2.5 litr su için, amma birdən yox - az-az, tez-tez.
- Çöldə gəzərkən başınızı örtün, günəşdən qoruyucu krem çəkin.
-Bayat, açıqda satılan süd və ət məhsullarından uzaq olun.
- İncə, pambıq geyimlər geyin və bədəni nəm saxlamayın.
- İstirahət üçün kölgəli və havalı yerlərə üstünlük verin.

## Yaşlılar üçün: Yay aylarında sağlam qalmağın yolları

Yaşlı insanlarda yay xəstəlikləri daha ağır keçə bilər. Xüsusilə təzyiq, şəkər, ürək-damar problemləri olanlar daha ehtiyatlı olmalıdır.

*Risklər:*

- İstivurma və halsızlıq
- Susuzlaşma və elektrolit itkisi
- Mədə-bağırsaq pozğunluqları
- İstiyə bağlı təzyiq dəyişmələri

*Nə etməli?*

Hər gün bol su için, lakin birdən-birə deyil. Evdə və ya kölgədə istirahət edin, günün isti saatlarında çölə çıxmayın. Yüngül və duzlu mayelər (məsələn, ayran) orqanizmi tarazlıqda saxlayır. Yeməklər az yağlı, təzə və ev şəraitində hazırlanmış olsun. Təcili hallarda başgicəllənmə, ürəkdöyünmə və ya zəiflik hiss edilərsə, dərhal həkimə müraciət edilməlidir.

***Ayşən Vəli***

# ABŞ üçün ən vacibi

## *Tramp müxtəlif ölkələrlə ticarət müqavilələri imzaladı*

***ABŞ bir neçə ölkə ilə ticarət sazişləri imzalayıb, həmçinin Donald Trampın tariflərin tətbiqi üçün müəyyən etdiyi son tarixdən - avqustun 1-dən əvvəl Hindistan və Braziliyaya tariflər tətbiq edib. "1 avqust tarixi dəyişməzdir və uzadılmayacaq. Amerika üçün vacib bir gün!" , Tramp Truth Social-da yazıb.***

### Cənubi Koreya

Cənubi Koreya ABŞ iqtisadiyyatına 350 milyard dollar sərmayə qoyacaq və Amerika şirkətlərindən 100 milyard dollar dəyərində enerji resursları alacaq. Bu, iki ölkə arasında ticarət sazişinin nəticələridir. Donald Tramp xəbəri "Truth Social" sosial şəbəkəsindəki səhifəsində paylaşıb. Cənubi Koreya üçün 15% gömrük rüsumu ilə bağlı razılığa gəldik. Amerikaya heç bir rüsum olmayacaq. Həmçinin, Cənubi Koreyanın ABŞ-la ticarətə tam açıq olması və Amerika məhsullarını, o cümlədən avtomobil, yük maşınları, kənd təsərrüfatı texnikası və s. qəbul edəcəkləri barədə razılıq əldə olunub", - Tramp yazıb. Bundan əlavə, Ağ Ev rəhbərinin sözlərinə görə, Seul əhəmiyyətli investisiyalar ayırmağa da razılaşıb, onların məbləği iki həftə ərzində, Cənubi Koreya prezidenti Li Çje Myonq Vaşinqtona gələndə açıqlanacaq.



### Tayland və Kamboca





ABŞ-ın Kamboca və Tailandla ticarət müqavilələri bağladığı da məlum olub. Müqavilənin təfərrüatları hələlik verilməyib. Tailand və Kamboca arasında sülh sazişi imzalandıqdan sonra ABŞ prezidenti bildirib ki, onun vasitəçilik səyləri sayəsində iki ölkə arasında silahlı qarşıdurmada "milyonlarla insanın" həlak olmasının qarşısı alınıb. Honq-Konqun "South China Morning Post" qəzeti yazır ki, Tramp hər iki ölkəni danışıqlar masasına oturtmaq üçün ticarət danışıqlarından "köpək" kimi istifadə edib, döyüşlər davam edərkən Vaşinqtonun heç biri ilə ticarət razılaşması əldə etməyəcəyi ilə hədələyib.




### Pakistan

ABŞ, həmçinin Pakistanla ölkədəki iri neft yataqlarının birgə işlənməsini ehtiva edən ticarət müqaviləsi imzalayıb. "Biz indicə Pakistanla saziş imzaladıq, ona əsasən ABŞ və Pakistan ölkənin nəhəng neft ehtiyatlarını birgə işlədəcək. Hazırda bu tərəfdaşlığa rəhbərlik edəcək neft şirkəti seçirik. Kim bilir, bəlkə bir gün Hindistana neft satacaqlar", - Ağ Evin rəhbəri Truth Social-dakı səhifəsində yazıb.

### Hindistana qarşı vəzifələr

Qeyd edək ki, bir gün əvvəl Donald Tramp avqustun 1-dən Hindistana qarşı 25%-lik rüsumların tətbiq ediləcəyini açıqlamışdı. "Hindistan bizim dostumuz olsa da, biz uzun illərdir onlarla nisbətən az iş görmüşük, çünki onların tarifləri çox yüksəkdir, dünyada ən yüksəklər arasındadır və onlar istənilən ölkənin ən sərt və alçaq qeyri-monetar ticarət manеələrinə malikdirlər", Donald Tramp Truth Social-da yazıb. ABŞ-ın Ticarət Nümayəndəsi Jamison Greer bazar ertəsi CNBC-yə bildirib ki, Hindistanla çətin bir ticarət razılaşması əldə etmək üçün iki ölkə arasında daha çox danışıqlara ehtiyac var.



### Braziliyada tariflər

Donald Tramp Braziliyadan gələn mal və xidmətlərə tarifləri 50%-ə qədər artıracaq sərəncam imzalayıb. Əvvəllər bu nisbət 10 faiz idi. "Braziliyadan ABŞ-ın gömrük ərazisinə daxil olan mallar qanunla 40 faiz əlavə advalor rüsumuna tabedir", - sərəncamda deyilir. Tarif artımı Trampı aktiv şəkildə dəstəkləyən Braziliyanın keçmiş prezidenti Jair Bolsonaronun məhkəməsi ilə əlaqədar həyata keçirilir. Vaşinqtonun fikrincə, məhkəmə "insan hüquqlarını pozan" "siyasi motivli" addımdır.

Bolsonaro 2023-cü ilin yanvarında Braziliya paytaxtında iğtişaşlara töhfə verməkdə şübhəli bilinir. Braziliya prezidenti Lula da Silva xəbərdarlıq edib ki, Braziliya mallarına rüsumların tətbiqi ABŞ-ın özünün iqtisadiyyatına mənfi təsir göstərə bilər. Braziliya Parlamentinin Federal Senatının üzvü Karlos Viana bildirib ki, Bolsonaroya dəstək bəhanədir, çünki Amerikanın Braziliya mallarının idxalına tarifləri BRİKS birliyinin güclənməsi ilə bağlı qorxularla diktə olunur. İyulun əvvəlində Donald Tramp Braziliya mallarına 50% rüsum tətbiq etməyi planlaşdırdığını açıqlamışdı. Bundan əvvəl Donald Tramp xəbərdarlıq etmişdi ki, ABŞ avqustun 1-nə planlaşdırılan 14-dən çox ölkəyə gömrük rüsumunun tətbiqini təxirə salmayacaq.

***V.VƏLİYEV***

# Təməl qida: ana südü həftəsi başlayır

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*



***Onu "həyat iksiri", "can dərmanı", "təməl qida" adlandırırlar. Dünyada tayı-bərabəri olmayan ən ibtidai, ilkin qida - ana südü. Ana südü hər körpənin təməl qidası olmalıdır, amma təəssüf ki, hazırda çox körpə bundan məhrum edilir. Ona görə "edilir" deyirəm ki, bir çox ana özü könüllü şəkildə övladını ana südündən məhrum edir, süni uşaq qidası ilə qidalanmasına səbəb olur. Halbuki Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), bütün dünya həkimləri, hətta müqəddəs kitablarda belə körpənin iki il ana südü ilə qidalanması vacib və mütləq hesab edilir.***

Son 30 ildə ana südü ilə bağlı aparılan araşdırmalar, ana südünün əvəzsiz qida olduğunu və körpənin qidalanmasında onu heç bir kənar qidanın əvəz edə bilməyəcəyini sübüt edir. Nəticədə bütün dünyada ana südünün təbliğatı aparılır, analar məlumatlandırılır.

Dünya iki cəbhəyə bölübüb - qlobal "smes" istehsalçıları və ana südünün möcüzəsini bilənlər. Əmizdirmə anaların və körpələrinin sağlamlığı üçün ən vacib amildir. Başqa heç bir qidalanma variantı ana südü ilə qidalanmanın təmin etdiyi sağlamlığı vəd etmir.





BMT-nin Uşaq Fondu (UNİCEF) və Səhiyyə Nazirliyinin birgə təşkilatçılığı ilə hər il ölkəmizdə avqust ayının 1-dən 7-dək "Ümumdünya ana südü ilə qidalandırma həftəsi" keçirilir. Bu tarix ana südü ilə qidalandırmanın qorunması, təşviqi və dəstəklənməsi üçün Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNİCEF, dövlət siyasətçiləri və digər təşkilatlar tərəfindən 1990-cı ilin avqust ayında imzalanan "Inocenti Deklarasiyası"nın xatirəsinə həsr edilir.

Qeyd edək ki, doğuşdan sonrakı ilk günlərdə süd vəziləri zülal və mineral maddələrlə zəngin, tərkibində çoxlu miqdarda İgA, az miqdarda yağ və karbohidrat olan ilk südü -molozivo istehsal edir. Həkimlər bu südü körpənin ilk peyvəndi adlandırırlar və hər körpənin mütləq molozivo ilə qidalanmasını vacib sayırlar. Xəstəxanalarda isə çox zaman körpəni bundan məhrum edərək anaya ilk südün formalaşmasının 1 həftə çəkəcəyini deyirlər. Təcrübəsiz ana da inanır və südü formalaşanadək körpəsinə süni uşaq qidası verir. 1 həftə bu qidanı yeyən körpə isə əmmə refleksini itirir, tənbəlləşir və heç vaxt ana südü əmmək istəmir.

Keçmiş baş pediatr Nəsib Quliyev bir müsahibəsində deyirdi: "Ananın doğuşdan sonra "südüm yoxdur" deməsi, "hamiləyəm, amma bətnimdə uşaq yoxdur" fikri qədər absurddur. Yaradan bütün qadınlara süd istehsal edə biləcək orqanizm verib". Baş pediatr illərini bu sahədə keçirən biri kimi çox şeyi görüb, çox şeyə şahid olmuşdu. Yeri gəlmişkən, süni uşaq qidasına qarşı mübarizə aparan azsaylı həkimlərdən olan pediatr Aytən İsmayılzadə deyir ki, körpənin reseptinə ana südü yerinə süni uşaq qidası yazan hər həkim qutusuna görə firmadan minimum 20-30 manat pul alır.



Əldə etdiyimiz məlumatlara görə, ölkəmizdə təxminən 1 yaşadək olan 100 mindən artıq körpə süni uşaq qidası yeyir. Təsəvvür edin, bir uşaq südəmər dövründə neçə qutu süni qida yeyir? Ayda ən azı 10-12 qutu. Bir qutu süni uşaq qidası minimum 10 manatdan başlayır, əksər hallarda həkimlər daha bahalısını məsləhət görür. Yəni ailə hər dəfə uşağına süni qida alanda həm də həkimin pulqabına pul göndərmiş olur. Belə ki, süni uşaq qidası bazarında bu qədər böyük pullar dövr edir. Əmizdirmə mütəxəssisləri doğum evlərinə buraxılmır, anaları südvermə ilə bağlı məlumatlandırırlar deyə.

UNICEF-in məlumatına görə, ana südü ilə qidalanmayan uşaqlarda ölüm nisbəti qidalananlara nisbətən 4-6 dəfə çoxdur. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) məlumatlarına görə, qida çatışmazlığı 5 yaşa qədər uşaq ölümlərinin 7 faizinə səbəb olur və bunun təxminən yarısının əsas səbəbidir. ÜST bildirir ki, əmizdirən qadınların nisbəti yüksək olarsa, ana südü hər il 800 000-dən çox insan həyatını xilas edəcək.

Körpə ilk 6 ayda yalnız ana südü ilə (susuz) qidalanmalı, 6 aydan sonra əlavə qidalara keçsələr belə, ən azı 2 yaşa qədər və daha sonra ana südü ilə qidalanmalıdırlar. Ana südü ilə qidalanan körpələrdə allergik xəstəliklər, 1 və 2 tip diabet, iltihablı bağırsaq xəstəlikləri, hipertoniya, xərçəng, allergiya, astma, piylənmə, dağınıq skleroz, diş quruluşunun pozğunluqları və bəzi psixi xəstəliklər daha az rast gəlinir. Ana südü ilə qidalananların təhsildə uğur qazandıqları da məlumdur. Üstəlik, əmizdirmə təkcə körpəyə deyil, həm də anaya, ölkə və ailə iqtisadiyyatına, ətraf mühitə öz töhfəsini verir.

Azərbaycanda yeni doğulanların ana südü ilə qidalandırılma statistikası ən son 2021-ci ilə aiddir. Ölkəmizdə yenidoğulanların 82,9 faizi (hər min nəfərə) ana südü ilə qidalanır. Onlardan 3 ayına qədər yalnız ana südü ilə qidalananlar 58,2 faiz təşkil edir. 6 ayına qədər ana südü qəbul edən körpələr 68 faizdir. Onlardan yalnız ana südü ilə qidalananlar isə 39,2 faiz təşkil edir. 12 ayına qədər ana südü ilə qidalananlar 46,4 faiz, 1,5 yaşına qədər ana südü ilə qidalananlar 16,9 faiz, 2 yaşa qədər ana südü ilə qidalananlar 8,7 faizdir. Bu, olduqca təhlükəli rəqəmdir.



Qeyd edək ki, ana südü ilə qidalanan yenidoğulan körpələrin sayı (hər min nəfərə) 2010-cu ildə 77.9 faiz, 2011-ci ildə 74.5 faiz, 2012-ci ildə 83.5 faiz, 2013-cü ildə 86.5 faiz, 2014-cü ildə 93. 2 faiz, 2015-ci ildə 90.3 faiz, 2016-cı ildə 95.2 faiz, 2017-ci ilə 89.7 faiz, 2018-ci ildə 82.8 faiz, 2019-cu ildə 82.9 faiz təşkil edib.

Pediatr Şahanə Yadigarlı deyir ki, əgər hansısa pediatr uşağa süni qida verilməsini məsləhət görürsə, bu, həmin həkimin savadının aşağı olmasının və yaxud süni qidaların satışından gəlir əldə etdiyinin göstəricisidir:

"Pediatr analara ancaq onu tövsiyə etməlidir ki, ilk altı ayadək övladını yalnız ana südü ilə qidalandırsın, ana südünü hansı yollarla artırsın. Altı aydan sonra isə ana südü ilə yanaşı, əlavə qidalar da verməк olar ki, bu da bir çoxunun başa düşdüyü kimi süni uşaq qidaları deyil, yumurta sarısı, yulaf, qarabaşaq, manna (buğda yarması) və digər sıyıqlardır. Mən analara həmişə mağazalarda satılan hazır yox, ev şəraitində hazırlanan qidaları məsləhət görürəm. Amma təəssüf edirəm ki, tənbəl analarımız çoxdur, alma püresini belə hazır alırlar. Ağıllı analar isə uşaqlarına konservantlarla konservləşdirilib uzunmüddətli istifadəyə yararlı olan qablaşdırılmış uşaq yeməkləri vermirlər".



Həkim deyir ki, anaların südü ola-ola doğum evlərində pediatrlar anaalara süni qidalar təklif edir, çox qadın da savadsızlıqdan bunu məcburi hesab edir: "Reseptlərə ən bahalı uşaq qidaları yazılır. Yanıma uşağını müayinəyə gətirən qadınlar var ki, baxıram südü olduğu halda süni qida verir uşağa. Alternativ qidalanma olduqda anaların südü quruyur, üstəlik, doğum evindən çıxıb evə gedəndən sonra da süni uşaq qidaları satan firmalar analardan əl çəkmir, tez-tez zəng edib uşağın qidalanması ilə maraqlanırlar. Bu, həmin firmaların həkimə pul ödəməsi deməkdir".

Ana südü əmən uşaqlarda miningit, qulaq infeksiyaları, revmatizm, əsəb problemi, immun çatışmazlığı da olmur, orta qulağın iltihabını belə ana südü sağalda bilir. Bundan əlavə döş əmən uşaqlar çox az xərçəng xəstəliyinə tutulma riski daşıyırlar, onlar yaşıdlarına nisbətdə daha az diabetə yoluxurlar.

Ana südü hər körpənin haqqıdır, onu bu nemətdən məhrum etməyə heç bir ananın haqqı yoxdur. Hamiləlikdə sağlam qidalanın ki, övladınızın təməl qidası bol olsun, onu yalnız biznes maraqları güdən işbazlardan, süni qidalarla genefondumuzu dağıtmağı qarşısına məqsəd qoyan qlobal qüvvələrin təsirindən qoruyasınız.

Hər yeri zəbt etmiş süni qidalarının reklamlarındakı "biz sizin övladınızı düşünərək ən yaxşı qidanı hazırladıq" kimi cümlələrə aldanmayın. Unutmayın ki, heç kim sizin övladınızı sizin qədər düşünə bilməz.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
1 avqust
2025-ci il

# DİQQƏT: ailədaxili münaqişələr uşaqlarda bu problemləri yaradır

*Psixoloq mühüm məqamları açıqladı*



"Ailədə baş verən dava-dalaş, söz-söhbət və mütəmadi münaqişələr uşağın psixologiyasına son dərəcə mənfi təsir göstərir. Ailə hər bir uşağın həyatında ilk və ən vacib sosial mühitdir. Uşaq bu mühitdə ilk dəfə sevgi, güvən, dəstək və münasibət anlayışları ilə tanış olur. Əgər ailə daxilində müsbət emosional atmosfer hökm sürürsə, uşaq da özünü təhlükəsiz və dəyərli hiss edir. Lakin əgər evdə daim mübahisə, qışqırıq və aqressiya müşahidə olunursa, bu, uşağın emosional sabitliyini pozur, qorxu, narahatlıq və gərginlik hissləri formalaşdırır". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fidan Nizamova deyib.

Onun sözlərinə görə, uşaqlar yaşlarından asılı olmayaraq, valideynlər arasında baş verən gərginliyi çox yaxşı hiss edirlər. Hətta danışmağa başlamamış körpələr belə evdəki emosional ab-havanı duyur və buna uyğun reaksiya verirlər: "Uşağın valideynləri arasında baş verən münaqişələri müşahidə etməsi, onun təhlükəsizlik duyğusunu sarsıdır və nəticədə müxtəlif psixoloji pozuntular ortaya çıxa bilər. Bunlara yuxusuzluq, gecə enurezi (yataq islatma), iştahasızlıq, həddindən artıq susqunluq və ya əksinə, aqressiv davranışlar daxil ola bilər. Dava-dalaşın təsiri yalnız uşağın indiki psixoloji vəziyyəti ilə məhdudlaşmır. Bu cür mühitdə böyüyən uşaq gələcəkdə formalaşdıracağı münasibətlərdə də problemlərlə üzləşə bilər. Məsələn, uşaq valideynlər arasında hörmətsizlik, təhqir, fiziki və ya emosional zorakılıq müşahidə edibsə, bu cür münasibət modelini normal qəbul edə bilər və gələcəkdə ya zorakılığı qəbul edən, ya da tətbiq edən bir fərdə çevrilə bilər.

Bundan əlavə, davamlı ailədaxili münaqişələr uşaqlarda özünə inamsızlıq yaradır. Onlar özlərini dəyərsiz və lazımsız hiss edə bilərlər. Bəzən uşaqlar valideynləri arasındakı münaqişələrə görə özlərini günahkar bilirlər, bu isə dərin emosional travmalara yol aça bilər. Məhz bu səbəbdən bir çox uşaq məktəbdə dərslərə diqqət yetirməkdə çətinlik çəkir, yaşıdları ilə ünsiyyətə girmək istəmir və ya müəllimlərinə qarşı aqressiv davranışlar nümayiş etdirir. Ailədə olan münaqişələrin uşaq üzərindəki təsiri zamanla dərinləşə və xroniki hala keçə bilər. Bu isə uşağın həm psixoloji, həm də sosial inkişafına əngəl yaradar.

Ona görə də valideynlər ailədaxili münasibətlərə xüsusi həssaslıqla yanaşmalı, mübahisə və fikir ayrılıqlarını uşaqların qarşısında deyil, sakit və nəzarətli şəkildə həll etməyə çalışmalıdırlar. Əgər bu mümkün deyilsə və vəziyyət nəzarətdən çıxırsa, mütləq şəkildə psixoloq dəstəyi alınmalıdır.

Unutmaq olmaz ki, sağlam ailə mühiti sağlam cəmiyyətin təməlidir. Valideynlər öz davranışları ilə uşaqlara həyat dərsi verirlər. Onlara sevgi, hörmət və anlayış göstərilən bir mühit təqdim etsək, uşaqlar da bu dəyərlərlə böyüyəcək və gələcəkdə sağlam, məsuliyyətli və empatiya qabiliyyəti yüksək fərdlərə çevriləcəklər. Ailə daxilində sülh və harmoniyanın qorunması təkcə valideynlərin deyil, bütövlükdə cəmiyyətin rifahı üçün mühüm əhəmiyyət daşıyır".

*Ziya Hikmətoğlu*


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# "Çelsi" 40 milyon avroya futbolçu transfer edir



Londonun "Çelsi" futbol klubu heyətini yeni futbolçu ilə gücləndirməyə hazırlaşır. QOL.az xəbər verir ki, bu barədə insayder Fabritsio Romano məlumat yayıb. London təmsilçisi "Ayaks"dan Jorrel Hato ilə razılaşıb. "Çelsi" 19 yaşlı sol cinah müdafiəçisi ilə 7 illik müqavilə imzalayacaq. "Zadəganlar" Hato üçün 40 milyon avro ödəyəcəklər. Bildirilib ki, o, yaxın vaxtlarda tibbi müayinədən keçəcək.

Qeyd edək ki, Jorrel "Ayaks"ın heyətində 111 oyun keçirib, 4 qol vurub, 9 məhsuldar ötürmə verib və 20 sarı vərəqə alıb.

# Avqustun ilk günü üçün hava proqnozu - rütubət 70-80 % olacaq

***Bakıda və Abşeron yarımadasında avqustun 1-də hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.***



Bildirilib ki, cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 34-38° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət isə gecə 70-80 %, gündüz 40-50 % təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, gecə və səhər duman olacağı ehtimalı var. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 23-27° isti, gündüz 35-39° isti, bəzi yerlərdə 41°-dək isti, dağlarda gecə 15-20° isti, gündüz 28-33° isti olacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**